RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 236 (9403) 28 OKTYABR 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Beynəlxalq enerji tərəfdaşlığı platforması

### "Qaradağ" stansiyasının istifadəyə verilməsi "yaşıl enerji" hədəflərimizə doğru inamlı addımdır

Azərbaycandakı layihələrə Birləşmiş Ərəb Əmirlikləri də böyük önəm verir. BƏƏ-nin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir "Qaradağ" stansiyasının açılışındakı çıxışında bunu belə ifadə edib: "Bu tədbir Azərbaycanın enerji şaxələndirilməsi və davamlı iqtisadi inkişafına aparan yolda mühüm bir tədbirdir… "Masdar"ın heç bir layihəsini görməmişəm ki, dörd nazir və Birləşmiş Ərəb Əmirliklərinin ən yüksəksəviyyəli nümayəndə heyətinin üzvləri eyni vaxtda iştirak etsinlər. Bu, həqiqətən də böyük bir ehtiramın, hörmətin və Sizin ölkənizlə əməkdaşlığımızın nümunəsidir. Cənab Prezident, mən Sizin çox nəcib, xoş sözlərinizi çox yaxşı xatırlayıram. Elə bu ilin əvvəlində Əbu-Dabidə Dayanıqlılıq Həftəsində çıxışınızı yaxşı xatırlayıram. Siz dediniz ki, Azərbaycanın bərpaolunan enerji mənbələrini uzun illər bundan əvvəl inkişaf etdirmək qərarı təkcə enerji təhlükəsizliyi ilə bağlı deyildi. Bu, cəsarətli və düşünülmüş qərar idi, hətta mən deyərdim, strateji bir addım idi. Bu, yeni sənaye sahələrini inkişaf etdirmək, yeni iş yerləri yaratmaq, "yaşıl iqtisadi artım" üçün strateji addım idi. Zati-aliləri, bu yanaşma Birləşmiş Ərəb Əmirliklərinin də yanaşmasının güzgüdəki əksinə bənzəyir. Əslində bu, Birləşmiş Ərəb Əmirliklərinin ötən iyirmi il ərzində qəbul etdiyi bir yanaşmadır. Bu gün Birləşmiş Ərəb Əmirlikləri böyük fəxarət hissi ilə "Masdar" kimi mütərəqqi enerji şirkətinin timsalında bunu sərgiləmiş olur. Bildiyiniz kimi, "Masdar" dünyanın aparıcı, məhz bərpaolunan enerji şirkətinə çevrilmişdir. Bu layihə ölkələrimiz arasında yaxın münasibətlərin inkişafında və möhkəmlənməsində mühüm mərhələdir".

→ 7

## Xalqlarımızın mənafeyi naminə iki ölkə arasında əməkdaşlıq genişlənir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyana zəng edib.**



Telefon danışığı əsnasında Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli əlaqələr müzakirə edilib, xalqlarımızın mənafeyi naminə iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivlərinə dair ətraflı fikir mübadiləsi aparılıb. Bu xüsusda Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında investisiyalar, iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, bərpaolunan enerji, turizm və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub.

Prezident İlham Əliyev ötən gün açılışı olan Qaradağ Günəş-Elektrik Stansiyasının Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa olunmasının önəmini qeyd edib. Dövlətimizin başçısı 230 meqavat gücündə olan Qaradağ Günəş-Elektrik Stansiyasının regionda ən böyük günəş-elektrik stansiyası olduğunu, Azərbaycanda xarici sərmayə ilə tikilən ilk bərpaolunan enerji stansiyası olduğunu vurğulayıb. Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin dörd nazirinin və geniş tərkibdə nümayəndə heyətinin bu tədbirdə iştirakının ölkələrimiz arasındakı dostluğun və tərəfdaşlığın nümunəsi olduğunu qeyd edib.

Azərbaycan Prezidenti Birləşmiş Ərəb Əmirliklərinin Prezidentini ölkəsinin BMT-nin İqlim Dəyişikliyi Konfransına - COP-28-ə evsahibliyi etməsi münasibətilə təbrik edib, bunu Birləşmiş Ərəb Əmirliklərinin Davamlı İnkişaf Məqsədlərinə nail olunması və ətraf mühitin qorunması ilə bağlı qlobal səylərə töhfəsinin nümunəsi kimi dəyərləndirib.

Dövlət başçıları iki ölkə arasında, eləcə də beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər təsisatlar çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

***Prezidentin Mətbuat Xidməti***

## 300 milyardlıq xarici investisiya

### Bu, ölkəmizin iqtisadi yüksəlişinin yalnız bir göstəricisidir

Son 30 ildə ölkəmizə cəlb edilən investisiyaların 67 faizə yaxınının qeyri-neft sektorunun payına düşməsi də mühüm əhəmiyyət kəsb edir. Bu, ondan xəbər verir ki, Azərbaycan xarici investorlar üçün cəlbedici ölkədir. Sərmayələrin neftlə yanaşı, qeyri-neft sektoruna da cəlb edilməsi isə təbii ki, digər xarici və yerli investorların bu sahəyə investisiya yatırmasına imkan yaradıb.

→ 7

## Murdar xislət

### Ermənistanın mina terroru bəşəri cinayətdir

Azərbaycan hələ təkcə müharibədən sonra yüzlərlə mina qurbanı verdiyinə görə ermənilərdən çox, onları müdafiə edən, hayları mədəni, məzlum millət kimi qələmə verən ermənipərəst beynəlxalq qurumlar və Fransa kimi dövlətlər xəcalət çəkməlidirlər. Bütün dünya başa düşməlidir ki, ermənilər yazıq və məzlum cildinə girmiş vəhşi cinayətkarlardır. Təqdim etdikləri mina xəritələrinin cəmi 25 faizinin doğru olması onların məqsədini ortaya qoyur. Tez-tez xəbər tuturuq ki, ərazilərimizdə minalar, raketlər, silah-sursatlar aşkarlanır. Həm də onların bir qisminin istehsalı müharibədən sonrakı illərə aiddir. Bu nə deməkdir?! 44 günlük müharibə başa çatdıqdan sonra separatçılar hansı yollarla və vasitələrlə, kimlərin köməyi ilə ərazilərimizi minalamağa başlayıblar?! İndi görün, nə qədər insan ermənilərin mina terrorunun qurbanına çevrilib. Hələ bu azmış kimi, minalanmış ərazilərdə neçə-neçə heyvanlar da məhv olur. Görəsən, Ermənistan təbiətə nə qədər zərər vurduğunun fərqindədir?!.

→ 8

## Ermənistanın mina terrorunun dəhşətləri

### Son 3 ildə Azərbaycanda 65 nəfər həlak olub, 269 nəfər ağır yaralanıb

Qarabağ bölgəsində əraziyə baxış zamanı kustar üsullarla əldəqayırma partlayıcı vasitələrin hazırlandığı emalatxana aşkar olunub. Müdafiə Nazirliyindən verilən məlumata görə, emalatxananın içərisində xeyli sayda dron vasitəsilə daşına bilən əldəqayırma minalar və onların hazırlanmasında daha çox insan tələfatına nail olmaq üçün istifadə edilən metal parçaları, eləcə də müxtəlif təxribatların törədilməsi məqsədilə hazırlanan digər partlayıcı qurğuların olduğu müəyyən edilib.

→ 8

## Yüksək texnologiyalar yüksək nəticələrə xidmət edir

### Azərbaycan gələcəkdə pambıqçılığın inkişafında daha yaxşı göstəricilər qazanacaq

Məlum olduğu kimi, "ağıllı kənd" layihəsinin başlıca məqsədi kənd sakinlərinin daha firavan yaşamasına, onların daha böyük yeniliklərə və yüksək məhsuldarlığa nail olmasıdır. Bu, həmçinin kənd əhalisinin şəhərə axınının qarşısını alan, kəndlə şəhər arasındakı fərqləri minimallaşdıran ciddi addımdır. Ona görə də yüksək texnologiyalar demək olar ki, "ağıllı kənd"in onurğa sütununu təşkil edir.



"Ağıllı kənd" konsepsiyasına əsasən, aqrar proseslərin elektronlaşdırılması istehsal imkanlarını gücləndirir. Burada da ən qabaqcıl texnologiyalar və texnotransferlərin tətbiqinə geniş imkan yaranır. Bu sistemin kənd infrastrukturunun digər sahələrinə - alternativ enerji mənbələrinə və müasir nəqliyyat sisteminə inteqrasiyası yüksək texnologiyaların daha geniş yayılmasına xidmət edəcək.

→ 11

## Fransa indi də "erməni abidələri" avantürasına başlayır

### Koloniolist ölkənin Azərbaycana qarşı hansısa iddialar səsləndirməsi gülüncdür

Son iki əsrlik tarixboyu mənfur ermənilər xalqımıza qarşı həm də mədəni təmizləmə siyasəti həyata keçiriblər. Zorla yiyələnmək istədikləri tarixi ərazilərimizdə yer adlarımızı, toponimlərimizi dəyişib, mədəni, dini irsimizə yiyələniblər, özününküləşdirə bilmədikləri - əksəriyyəti dini ocaqlarımız olan - maddi irsimizi isə dağıdıblar.

Tarixi faktdır ki, XX əsrin əvvəllərində İrəvan quberniyası ərazisində 300 məscidimiz qeydə alındığı halda, hazırda Ermənistan ərazisində - İrəvan şəhərində yalnız bir məscid - Göy məscid qismən salamat qalıb.

→ 8

## Ağrı-acılarımızın ən böyük təsəllisi - QƏLƏBƏ







→ 9

# V.H.Abdullayevin Azərbaycan Respublikasının Slovakiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vüsal Hacımahmud oğlu Abdullayev Azərbaycan Respublikasının Slovakiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2023-cü il*

# A.B.Məmmədovun Azərbaycan Respublikasının Yunanıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Arif Baloğlan oğlu Məmmədov Azərbaycan Respublikasının Yunanıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2023-cü il*

# A.B.Məmmədovun Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyi İdarə Heyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Arif Baloğlan oğlu Məmmədov Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyi İdarə Heyətinin sədri vəzifəsindən azad edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2023-cü il*

# R.N.Sadıqbəylinin Azərbaycan Respublikasının Slovakiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rövşən Nüsrət oğlu Sadıqbəyli Azərbaycan Respublikasının Slovakiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2023-cü il*

# "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 622 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 622 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 498; 2007, № 11, maddə 1114; 2009, № 12, maddə 977; 2011, № 2, maddə 84; 2014, № 3, maddə 242; 2017, № 6, maddə 1116, № 7, maddə 1317; 2020, № 6, maddə 690, № 7, maddə 881, № 12 (I kitab), maddə 1501; 2021, № 6 (I kitab), maddə 567, № 11, maddə 1219; 2023, № 7, maddə 949) 2-ci hissəsinin beşinci abzasında "34-cü maddəsinin ikinci" sözləri "34-cü maddəsinin üçüncü" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 411, № 8, maddə 680; 2007, № 6, maddə 602, № 8, maddə 770, № 10, maddə 947; 2008, № 7, maddə 612, № 11, maddələr 967, 970; 2009, № 10, maddə 779, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2011, № 2, maddə 85; 2012, № 7, maddə 688, № 9, maddə 855; 2013, № 2, maddə 114, № 6, maddə 651, № 9, maddələr 1060, 1061; 2016, № 3, maddə 436; 2017, № 10, maddə 1781; 2018, № 2, maddə 217, № 5, maddə 932, № 10, maddə 1990; 2019, № 12, maddə 1953; 2020, № 3, maddə 228, № 6, maddə 690, № 8, maddə 1036; 2021, № 4, maddə 327, № 6 (I kitab), maddə 570, № 8, maddə 920; 2022, № 5, maddə 445, № 6, maddə 597, № 8, maddə 839, № 10, maddə 1126; 2023, № 2, maddə 249, № 7, maddələr 952, 959) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5. Nazirliyin saxlanması xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi, büdcədənkənar vəsait və qanunda nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.".

2. Aşağıdakı məzmunda 7.1-1-ci və 8.1-2-ci yarımbəndlər əlavə edilsin:

"7.1-1. müvafiq sahədə dövlət tənzimləməsini həyata keçirir, tibbi xidmətlərin keyfiyyətinə nəzarəti təmin edir;";

"8.1-2. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq xidmətlər zərfinə daxil olmayan və tabeliyində olan tibb müəssisələri tərəfindən əhaliyə ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin tariflərini, habelə həmin Qanuna əsasən sığortaolunan hesab edilməyən şəxslərə göstərilən tibbi xidmətlərin tariflərini təsdiq etmək;".

3. 8.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"8.3. səhiyyə sahəsində dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının, konsepsiyaların hazırlanmasında iştirak etmək və fəaliyyət istiqamətlərinə uyğun olaraq, həmin sənədlərlə bağlı aidiyyəti üzrə tədbirlərin həyata keçirilməsini təmin etmək;".

4. Aşağıdakı məzmunda 8.4-1 - 8.4-4-cü yarımbəndlər əlavə edilsin:

"8.4-1. təcili və təxirəsalınmaz tibbi yardımın göstərilməsi qaydasını və ixtisaslaşdırılmış tibbi yardımın növlərini, həcmini, keyfiyyət standartlarını və göstərilməsi qaydasını təsdiq etmək;

8.4-2. səhiyyə sistemi infrastrukturunun təşkili ilə bağlı planlaşdırmanı və proqnozlaşdırmanı aidiyyəti qurumlarla birlikdə həyata keçirmək;

8.4-3. tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi və səhiyyənin təşkili üçün mütərəqqi forma və metodların tətbiqi məqsədilə araşdırmalar aparmaq və sınaqlar keçirmək, səhiyyə sahəsində müxtəlif maliyyələşmə modellərinin effektivliyinin təhlilini həyata keçirmək;

8.4-4. müvafiq sahədə əhalinin maarifləndirilməsi ilə bağlı tədbirlər görmək və bu tədbirlərin icrasının effektivliyinə nəzarəti təmin etmək;".

5. 8.11-ci yarımbənddə "tədbirlərin hazırlanıb həyata keçirilməsini təmin" sözləri "tədbirləri hazırlamaq və həyata keçirilməsinə nəzarət" sözləri ilə əvəz edilsin.

6. 8.13-cü yarımbəndə birinci halda "tibb" sözündən əvvəl "tibb müəssisələrini tibb təhsilli kadrlarla təmin etmək məqsədilə" sözləri əlavə edilsin və həmin yarımbənddən ", qurumlarını ixtisaslı kadrlarla təmin etmək" sözləri çıxarılsın.

7. 8.13-2-ci yarımbənddə "qanunvericiliyə uyğun olaraq həkimlərin və əczaçıların" sözləri "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, həkimlərin, əczaçıların və orta tibb və ya əczaçılıq təhsili olan şəxslərin (işçilərin)" sözləri ilə əvəz edilsin.

8. Aşağıdakı məzmunda 8.13-4-cü və 8.13-5-ci yarımbəndlər əlavə edilsin:

"8.13-4. Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələrdə digər qaydalar nəzərdə tutulmadıqda, xarici ölkələrdə tibb və ya əczaçılıq təhsili almış şəxsləri, xarici ölkələrdə hazırlıq alan tibb və əczaçılıq işçilərinin Azərbaycan Respublikasında tibbi və əczaçılıq fəaliyyəti ilə məşğul olmağa buraxılması qaydasına uyğun olaraq, ölkə ərazisində tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmağa buraxmaq;

8.13-5. ali və orta ixtisas tibb təhsili müəssisələrinə müvafiq ixtisaslar üzrə qəbul barədə təkliflər vermək;".

9. 8.15-ci yarımbəndə "görmək" sözündən sonra ", o cümlədən tabeliyində olan tibb müəssisələrinin dayanıqlı inkişafı üçün təhlillər aparmaq və təkliflər hazırlamaq" sözləri əlavə edilsin.

10. Aşağıdakı məzmunda 8.15-1-ci yarımbənd əlavə edilsin:

"8.15-1. səhiyyə sistemində idarəetmənin təkmilləşdirilməsi, islahatlar aparılması, tibb müəssisələrinin maliyyələşməsi və xərclərinin idarə edilməsi məqsədilə mütərəqqi və effektiv beynəlxalq təcrübənin tətbiqi ilə bağlı aidiyyəti üzrə təkliflər vermək;".

11. 8.18-ci yarımbəndə "qurumlarında" sözündən əvvəl "Nazirliyin Aparatında," sözləri əlavə edilsin.

12. Aşağıdakı məzmunda 8.27-1-ci, 8.27-2-ci və 9.1-1-ci yarımbəndlər əlavə edilsin:

"8.27-1. səhiyyə sahəsində rəqəmsallaşdırmanı aidiyyəti dövlət orqanları (qurumları) ilə qarşılıqlı əlaqədə tətbiq etmək;

8.27-2. Azərbaycan Respublikasında tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ olan şəxslərin dövlət reyestrini aparmaq;";

"9.1-1. tibbi sığorta ilə bağlı təkliflər vermək;".

13. 9.5-ci yarımbənddə "dövlət məhkəmə ekspertizası fəaliyyətini" sözləri "məhkəmə-tibbi ekspertizasını" sözləri ilə əvəz edilsin.

14. 9.6-cı yarımbənddən ", müvafiq sahədə təşviqat və maarifləndirmə işlərini həyata keçirmək" sözləri çıxarılsın.

15. 13-cü bəndin birinci abzasında "birinci müavini və dörd" sözləri "üç" sözü ilə əvəz edilsin.

16. Aşağıdakı məzmunda 14.1-1-ci və 14.1-2-ci yarımbəndlər əlavə edilsin:

"14.1-1. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Nazirliyin digər vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

14.1-2. Nazirliyin Aparatının struktur bölmələrinin əsasnamələrinin, tabeliyindəki qurumların (nizamnamələrini Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdikləri hüquqi şəxslər istisna olmaqla) nizamnamələrinin təsdiqi barədə, həmçinin bu Əsasnamənin 17-1-ci bəndində Nazirliyin Kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir;".

17. 14.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"14.2. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda Nazirliyin tabeliyindəki qurumların nizamnamələrini təsdiq olunmaq üçün təqdim edir;".

18. Aşağıdakı məzmunda 14.3-2-ci, 14.3-3-cü yarımbəndlər və 17-1-ci bənd əlavə edilsin:

"14.3-2. Nazirliyin fəaliyyət istiqamətləri üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar fondların formalaşdırılması ilə bağlı təkliflər verir;

14.3-3. Elmi-Tibbi Şuranın, Farmakoloji və Farmakopeya Ekspert Şurasının və Apellyasiya Şurasının sədrlərini, Şura sədrlərinin təqdimatı (təklifi) əsasında onların digər üzvlərini, o cümlədən Apellyasiya Şurası Katibliyinin rəhbərini və tərkibini təsdiq edir;";

"17-1. Nazirliyin Kollegiyası qərarlar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

17-1.1. Nazirliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktları;

17-1.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən Nazirliyə tapşırılmış konkret normativ hüquqi aktları;

17-1.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktları;

17-1.4. qanunvericiliklə müəyyən edilmiş hallarda müvafiq dövlət orqanları (qurumları) ilə razılaşdırılmalı olan normativ hüquqi aktları;

17-1.5. nazirin təşəbbüsü ilə Nazirliyin Kollegiyasının müzakirəsinə çıxarılan bu Əsasnamənin 14.1-2-ci yarımbəndində nəzərdə tutulmuş normativ hüquqi aktları;

17-1.6. Nazirliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişiklik edilməsi barədə normativ hüquqi aktları.".

19. 19-cu bənd ləğv edilsin.

20. 22-ci bəndin birinci cümləsində üçüncü halda "və" sözü vergül işarəsi ilə əvəz edilsin, həmin cümləyə "Şurası" sözündən sonra "və sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin öz sahibkarlıq fəaliyyəti ilə bağlı Nazirliyin və ya onun tabeliyindəki qurumların qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalar istisna olmaqla) təkrar şikayətlərinə, habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxmaq məqsədilə Nazirlikdə ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2023-cü il*

# Azərbaycanın Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresindəki nümayəndə heyəti bəyanat yaydı

"Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin oktyabrın 26-da Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı qəbul etdiyi bəyannamədə ölkəmizə qarşı əsassız ittihamları və qərəzli münasibəti qətiyyətlə rədd edirik".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycanın Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresindəki nümayəndə heyətinin bəyanatında yer alıb.

Azərbaycan nümayəndə heyəti bəyanatda bildirir ki, ölkəmizin Avropa Şurasına üzv olduğu uzun müddət ərzində Azərbaycan ərazilərinin 20 faizi Ermənistanın işğalı altında olmuş, bir milyona yaxın azərbaycanlı Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində məcburi köçkünə çevrilmişdir. Lakin ötən dövrdə bu məsələlər konqresdə heç vaxt xüsusi olaraq müzakirə olunmamış, beynəlxalq hüququn kobud şəkildə pozulması və onun humanitar nəticələri ilə bağlı açıq şəkildə heç bir mövqe ortaya qoyulmamışdır. Bundan başqa, 2020-ci ildən sonrakı postmünaqişə dövründə Azərbaycanın üzləşdiyi humanitar problemlərə, o cümlədən işğaldan azad edilmiş ərazilərdə yüzlərlə yaşayış məntəqələrinin tamamilə dağıdılmasına, ərazilərin kütləvi şəkildə minalarla çirklənməsinə və bütün bunların azərbaycanlı məcburi köçkünlərin öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmasına təsirinə diqqət yetirilməmişdir.

Bütün bunların fonunda Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin Azərbaycanın öz suveren ərazilərində qeyri-qanuni erməni silahlı birləşmələrinin mövcudluğundan irəli gələn təhlükəsizlik təhdidinin aradan qaldırılması məqsədilə 2023-cü il sentyabrın 19-20-də həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərini təhrif edən bəyannamə qəbul etməsi dərin təəssüf doğurur. Bundan başqa, Azərbaycanın regionda davamlı sülhün bərqərar olması və Qarabağ bölgəsinin erməni sakinlərinin reinteqrasiyası istiqamətində göstərdiyi ardıcıl səylər, habelə Ermənistanın həmin səyləri sarsıtmağa yönəlmiş təxribatçı fəaliyyəti konqresin bu bəyannaməsində lazımi səviyyədə tanınmamışdır.

Bu baxımdan, konqresin Azərbaycana qarşı məkrli siyasi kampaniyaya sürüklənməsini və ölkəmizlə bu qurum arasında konstruktiv əməkdaşlığa xələl gətirilməsini məsuliyyətsizlik hesab edirik. Azərbaycan nümayəndə heyəti olaraq, ölkəmizə qarşı göstərilən bu ədalətsiz yanaşmanı tam şəkildə rədd edir və konqresi regionumuzda sülh prosesi ilə bağlı lazımi ehtiyatlı davranış sərgiləməyə və ciddi şəkildə öz mandatı çərçivəsində hərəkət etməyə çağırırıq.

# Azərbaycanın xarici işlər naziri Türkiyənin Anadolu Agentliyinə müsahibə verib



Oktyabrın 27-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Türkiyənin aparıcı media qurumlarından olan Anadolu Agentliyinə müsahibə verib.

AZƏRTAC xəbər verir ki, Anadolu Agentliyinin Türkiyə Respublikasının 100 illiyi layihəsi çərçivəsində reallaşdırdığı müsahibədə nazir Ceyhun Bayramov Türkiyə Respublikasının 100-cü ildönümü ilə bağlı səmimi təbriklərini çatdırıb, qeyd olunan tarixin yalnız Türkiyə üçün deyil, bütün türk dünyası üçün çox əhəmiyyətli bir tarix və qürur mənbəyi olduğunu bildirib. Türkiyənin bu gün müxtəlif istiqamətlərdə bütün dünyaya liderliyini nümayiş etdirən, beynəlxalq səviyyədə strateji tərəfdaşlarının sayını artıran, ölkə tarixinin bəzi mərhələlərində açıq-aşkar xarici təhdidlərlə üzləşməsinə baxmayaraq, bütün bu çətinlikləri qürur duyacaq şəkildə dəf edən bir dövlət olduğunu qeyd edib. Qardaş Türkiyənin dünyanın aparıcı güc mərkəzləri tərəfindən qəbul olunan və hörmət edilən nadir ölkələrdən biri kimi bu gün beynəlxalq miqyasda uğurlu vasitəçilik siyasəti həyata keçirdiyini diqqətə çatdırıb.

Müsahibəsində nazir Ceyhun Bayramov son illərdə sürətlə inkişaf edən Azərbaycan və Türkiyə arasında Şuşa Bəyannaməsinə əsaslanan müttəfiqlik əlaqələri barədə fikirlərini bölüşüb. Türkiyənin ölkəmizin müstəqilliyini ilk tanıyan ölkə olduğunu məmnunluqla xatırladan nazir, qardaş ölkə ilə mövcud tarixi, mədəni, milli və dini bağlılıqlardan söz açıb.

Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" və Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" kəlamlarına istinad edən nazir Ceyhun Bayramov strateji tərəfdaşlıq səviyyəsindən müttəfiqlik səviyyəsinə yüksələn münasibətlərin arxasında xalqlarımızın iradəsinin, liderlərimizin qardaşlıq münasibətlərinin dayandığını, Türkiyənin siyasi və mənəvi dəstəyinin daima gücümüzə güc qatdığını xüsusilə vurğulayıb.

Müsahibəsində Şuşa Bəyannaməsinin əhəmiyyətinə toxunan nazir qeyd olunan sənədi iki ölkə arasında bütün istiqamətlərdə fəaliyyətin yol xəritəsi kimi xarakterizə edib, bu xüsusda reallaşdırılan mühüm nəqliyyat layihələri, mövcud əməkdaşlıq perspektivlərindən söz açıb.

Həmçinin müsahibəsində nazir Ceyhun Bayramov Azərbaycan və Türkiyə arasında bir-birinə qarşılıqlı dəstək məsələlərinə toxunaraq ölkələrimizin Türk Dövlətləri Təşkilatı çərçivəsində fəal rolundan, üçtərəfli və dördtərəfli əməkdaşlıq platformalarında genişlənən əməkdaşlığımızdan bəhs edib.

Nazir Şuşa Bəyannaməsinin həyata keçirilməsi ilə mövcud imkanların daha da genişləndiriləcəyinə əminliyini ifadə edib.

Anadolu Agentliyinin Türkiyə Respublikasının 100 illiyi layihəsi çərçivəsində reallaşdırdığı müsahibə ilə aşağıdakı keçidlər vasitəsilə tanış olmaq mümkündür: Anadolu Agentliyi, XİN-in rəsmi "YouTube" səhifəsi.

# Azərbaycanla İraq arasında ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb



Oktyabrın 27-də xarici işlər naziri Ceyhun Bayramov İraq Respublikası Nümayəndələr Şurasının (parlament) üzvü Ərşad Rəşad Salihinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan-İraq münasibətlərində son zamanlar artan dinamizm, bu xüsusda cari ilin mart və iyul aylarında müvafiq olaraq, İraq Prezidenti və xarici işlər nazirinin Azərbaycana səfərləri, bu səfərlər çərçivəsində baş tutan ali və yüksəksəviyyəli görüşlər məmnunluqla xatırlanıb. Azərbaycan ilə İraq arasında mövcud siyasi dialoqun, iqtisadi-ticarət əlaqələrinin, parlamentlərarası və regionlararası əməkdaşlığın və mədəni mübadilələrin davamlı şəkildə sürdürülməsinin önəmindən bəhs olunub.

Hər iki ölkədəki mövcud diplomatik təmsilçiliklərdən əlavə, mədəniyyət mərkəzləri vasitəsilə humanitar mübadilələrin təşviqinin xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına töhfə verə biləcəyi qeyd olunub.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Qərbi Azərbaycan İcması Ermənistanın xarici işlər nazirinin açıqlamasına cavab verib

"Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Azərbaycanın Qarabağ bölgəsinə UNESCO missiyasının göndərilməsinin vacibliyi ilə bağlı açıqlama verib. Sülhdən, sülh müqaviləsindən ağızdolusu danışan Ermənistanın hələ də Azərbaycanın suverenliyini təhdid edən, onun daxili işlərinə kobud müdaxilə kimi qiymətləndirilən belə açıqlamaları tamamilə qəbuledilməzdir".

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının məsələ ilə bağlı bəyanatında bildirilib.

Qərbi Azərbaycan İcması hesab edir ki, A.Mirzoyan başda olmaqla erməni diplomatiyasının UNESCO ilə bağlı ilk işi, Azərbaycan xalqının mədəni irsinin monitorinqi məqsədilə bu təşkilatın faktların araşdırılması missiyasının Ermənistana səfərinə imkan yaratmaq olmalıdır.



# Baş nazir Əli Əsədov Tbilisidə Ulu Öndərin abidəsini ziyarət edib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Gürcüstana işgüzar səfəri çərçivəsində Tbilisidəki Heydər Əliyev parkında Ulu Öndərin abidəsini ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, hökumət başçısı Ümummilli Liderin büstü önünə əklil qoyub, xatirəsini ehtiramla yad edib.

# Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının yeni binasının təməli qoyulub

Gürcüstanda səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov oktyabrın 27-də Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birlikdə Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının yeni binasının təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, təməlqoyma mərasimində çıxış edən Baş nazir Əli Əsədov Azərbaycan və gürcü xalqlarının əsrlər boyu dostluq, mehriban qonşuluq, sülh və qarşılıqlı anlaşma şəraitində yaşamasını şərtləndirən əsas amilin tarixi köklərə söykənən mədəni əlaqələr olduğunu vurğulayıb. Bildirib ki, həm Azərbaycanda, həm də Gürcüstanda tarixən xalqlarımızın milli-mənəvi dəyərlərinə, mədəniyyətinə, dilinə, dininə, incəsənətinə, ədəbiyyatına böyük hörmət və xüsusi rəğbət bəslənilib. Azərbaycanın bir çox görkəmli xadimləri, böyük şəxsiyyətləri - Mirzə Fətəli Axundzadə, Mirzə Şəfi Vazeh, Fətəli xan Xoyski Gürcüstanda yaşayıb-yaratmış, əbədiyyətə qovuşmuşlar. Eynilə Gürcüstanın bir çox mədəniyyət və incəsənət xadimləri, görkəmli şəxsiyyətləri Azərbaycanda fəaliyyət göstərmiş, ictimai və mədəni həyatımıza mühüm töhfələr vermişlər.

1872-ci ildə Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının fəaliyyətə başlamasını ölkələrimiz arasında əsrlərə dayanan mədəni əlaqələrin daha bir göstəricisi olduğunu vurğulayan Baş nazir deyib: "Teatrın uzunmüddətli fəaliyyəti dövründə gürcü, Azərbaycan və dünya ədəbiyyatı klassiklərinin ölməz əsərləri böyük uğurla səhnələşdirilib. Bu gün Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adını daşıyan Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrına müasir tərzdə yeni nəfəs verilməsi tarixi hadisədir. Teatrın yeni binasının Tbilisi şəhərinin önəmli gözəl guşəsində yerləşməsi ilə bağlı qərarı çox yüksək qiymətləndiririk".

Ulu Öndər Heydər Əliyevin Gürcüstana isti münasibətindən danışan Əli Əsədov bildirib: "Heydər Əliyev Azərbaycana rəhbərliyi dövründə həmişə qonşu dövlətlərə dost münasibəti göstərib. O ki qaldı Gürcüstan, bu, bir xüsusi haldır. Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə Gürcüstana və gürcü xalqına böyük hörmət bəsləmiş, xüsusi diqqət və qayğı ilə yanaşmışdır. Dəfələrlə Gürcüstanda səfərdə olmuş Heydər Əliyevin Gürcüstanın ovaxtkı rəhbəri mərhum Eduard Şevardnadze ilə qarşılıqlı etimada əsaslanan möhkəm dostluq münasibətlərini hamımız yaxşı xatırlayırıq. Məhz onların liderliyi sayəsində ölkələrimizin siyasi, iqtisadi, mədəni-humanitar və bütün digər sahələrdə münasibətlərinin inkişafının möhkəm təməlləri qoyulmuşdur. Hər iki liderin siyasi karyerası unikallığı ilə seçilirdi və oxşar tarixi hadisələrlə yadda qalmışdır. Belə ki, onlar ikinci dəfə öz xalqlarının tələbi ilə artıq müstəqil dövlətin rəhbəri kimi siyasi fəaliyyətlərini davam etdirmişlər. Ölkələrinə rəhbərlik dövründə digər sahələrlə bərabər onlar öz xalqlarının milli-mənəvi dəyərlərinə, dilinə, dininə, mədəniyyətinə, incəsənətinə, musiqisinə xüsusi diqqət, qayğı və həssaslıqla yanaşmış, bu irsin qorunması və inkişaf etdirilməsi üçün əllərindən gələni əsirgəməmişlər. Onu da xüsusi qeyd edim ki, Heydər Əliyev gürcü incəsənətinin, ədəbiyyatının, musiqisinin, kinosunun böyük pərəstişkarı idi".

Müasir dövrdə Prezident İlham Əliyevin və Baş nazir İrakli Qaribaşvilinin bizə miras qalan zəngin tarixi ənənələri yaşatdıqlarını, demokratiya yolu ilə inkişaf edən müstəqil dövlətlərimizin milli maraqlarını qoruyaraq onları daha böyük nailiyyətlərə doğru apardıqlarını vurğulayan Baş nazir təməli qoyulan teatrın peşəkar kollektivinin burada yaradılacaq gözəl şəraitdən layiqincə istifadə edəcək, yeni layihələrlə və tamaşalarla Tbilisinin mədəni həyatında fəal rol oynayacağına ümidvar olduğunu bildirib. Qeyd edib ki, bu, Azərbaycan-Gürcüstan mehriban qonşuluq, dostluq və qardaşlıq münasibətlərinin möhkəmlənməsinə, xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına töhfə verəcək.











"Əminəm ki, bu teatr mədəniyyət və incəsənətsevərlərə layiqli hədiyyə olmaqla yanaşı, həm də tarixi, qədimliyi və müasirliyi özündə mükəmməl şəkildə sintez edən Tbilisi şəhərinin görkəminə xüsusi gözəllik verəcək və Gürcüstan paytaxtının mədəni ocağına çevriləcək. Əlamətdar haldır ki, Heydər Əliyevin adını daşıyan bu mədəniyyət ocağının yeni binasının təməlqoyması məhz cari ilə - Azərbaycan xalqının Ümummilli Liderinin anadan olmasının 100-cü ildönümünə təsadüf edir. Heydər Əliyevin bu mötəbər yubileyi münasibətilə Gürcüstanda da silsilə tədbirlər keçirilmişdir. Ulu Öndərin əziz xatirəsinə göstərilən hörmət və ehtirama görə öz adımdan, Azərbaycan hökuməti və xalqı adından hörmətli cənab Baş nazir İrakli Qaribaşviliyə, Gürcüstan hökumətinə və xalqına təşəkkürümü ifadə edirəm", - deyə Baş nazir Əli Əsədov xüsusi vurğulayıb.

Azərbaycanda da hər zaman olduğu kimi, Gürcüstanın görkəmli şəxsiyyətlərinin xatirəsinə böyük hörmət və ehtiramla yanaşıldığını qeyd edən Baş nazir bu günlərdə Gəncədə görkəmli gürcü şairi Nikoloz Barataşvilinin bir zamanlar yaşayıb-yaratdığı və çalışdığı binanın önünə xatirə lövhəsinin vurulduğunu, Qax rayonunda fəaliyyət göstərən Gürcü Dövlət Dram Teatrına böyük gürcü ədibi İlya Çavçavadzenin adının verildiyini xatırladıb.

Baş nazir İrakli Qaribaşvili bildirib ki, Gürcüstanda Azərbaycan teatrının böyük tarixi var. Gürcüstanda ilk Azərbaycan teatrı 1872-ci ildə yaradılıb. O, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adını daşıyan Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının müasir üslubda yeni binasının təməlinin qoyulmasının əhəmiyyətini xüsusi vurğulayaraq qeyd edib: "Bu gün hamımız sevinirik ki, teatrın yeni, müasir binasının təməli qoyulacaq və tezliklə daha əzəmətli bina tikiləcək. Bununla da paytaxtımızın mədəni həyatına daha bir əlamətdar məkan əlavə olunacaq. Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının yeni binasının təməlinin qoyulması Gürcüstan və Azərbaycan arasında möhkəm dostluğun və əməkdaşlığın sübutudur".

Prezident İlham Əliyevin bir neçə gün əvvəl Gürcüstana səfərini xatırladan Baş nazir deyib: "Bu səfər çərçivəsində çox səmərəli görüşümüz və müzakirələrimiz oldu. Biz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş sərgini birlikdə ziyarət etdik. Bu il Azərbaycanda Heydər Əliyevin 100 illik yubileyi qeyd olunur. Məhz bu çərçivədə biz bu gün Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının yeni binasının təməlini qoyuruq. Mən Baş nazir Əli Əsədova da təşəkkür etmək istəyirəm. Tbilisiyə gəldiyiniz və 4-cü İpək Yolu Beynəlxalq Forumunda iştirak etdiyiniz üçün minnətdaram. Biz bunu çox yüksək qiymətləndiririk".



# Heydər Əliyev İli 2023

## *Van At NQUYEN:* "Heydər Əliyev Vyetnamın birləşməsindən sonra ölkəmizi ilk ziyarət edən ən yüksəkvəzifəli şəxs idi"




Görkəmli dövlət xadimi Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək vəzifədə çalışdığı dövrdə təkcə kurasiyasında olan sahələrin inkişafı ilə deyil, həm də zamanında dünya siyasətinin formalaşmasında böyük rol oynayan SSRİ-nin xarici ölkələrlə, xüsusən də sosialist dövlətlərlə münasibətlərin tənzimlənməsində xüsusi xidmətləri var.

Bu xüsusda Heydər Əliyev təkcə SSRİ-yə gələn nümayəndə heyətləri ilə görüşlərlə kifayətlənməyib, xarici ölkələrə də səfərlər edib. Bu günlər Ulu Öndərin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışarkən Vyetnama ilk xarici səfərinin 40 ili tamam olur. Böyük nümayəndə heyəti ilə Vyetnama səfər edən Heydər Əliyev bir sıra görüşlər keçirib. SSRİ ilə Vyetnam arasında iki ölkəni narahat edən məsələlər müzakirə olunub. Əslində, həmin səfərin Vyetnam üçün olduqca böyük, başqa sözlə, həyati əhəmiyyəti var idi. Çünki əzablı Fransa işğalından, ABŞ ilə qanlı müharibədən sonra təzəcə sabitlik və inkişaf yoluna qədəm qoyan Vyetnam regionda gedən geosiyasi proseslər fonunda yenə ciddi təhdidlə üzləşmişdi. Belə bir məqamda Heydər Əliyevin səfəri Vyetnam xalqı və hökuməti üçün böyük dəstək ifadə edirdi. Danışıqlarda mühüm siyasi məsələlər, eləcə də Vyetnama iqtisadi yardım və elmi-texniki kömək göstərilməsi geniş müzakirə olunmuşdu.

Səfər çərçivəsində Heydər Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti sovet mütəxəssislərinin dəstəyi ilə Hanoyda Qırmızı çayın üzərində inşa olunan Thanlonq körpüsünün açılış mərasimində də iştirak edib. Açılış mərasimində Ulu Öndərin çıxışını Vyetnam dilinə tərcümə edən Van At Nquyen həmin günlərlə bağlı xatirələrini AZƏRTAC-la bölüşüb: "Mənə Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyətini müşayiət etmək və tərcüməçilik işi tapşırılmışdı. Həmin vaxtdan 40 il keçib, amma mən bütün hadisələri xatırlayıram. Səfərin əhəmiyyəti çox böyük idi, çünki hələ o vaxta qədər Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinin yüksəkvəzifəli şəxslərindən heç kim Vyetnama səfər etməmişdi. Heydər Əliyev Vyetnamın birləşməsindən sonra ölkəni ilk ziyarət edən ən yüksəkvəzifəli şəxs idi. Mənim ilk təəssüratım isə onun avtomobildən düşdüyü andan yarandı. Qarşımda güclü şəxsiyyət və siyasətçi görürdüm. Heydər Əliyev Thanlonq körpüsünün tikinti işləri ilə maraqlanırdı. Körpüdə görüş üçün böyük yığıncaq təşkil olunmuşdu. Heydər Əliyevin mərasimdəki çıxışı onun ölkəmizə ilk dəfə gəlməsinə baxmayaraq, Vyetnam xalqının qəhrəmanlığı haqqında məlumatlı olduğunu göstərirdi. Dedi ki, Vyetnam uzun illər davam edən müharibələrdən sonra qalib gəlib və dövlətini qurmağa başlayıb. Heydər Əliyev bədahətən, fasiləsiz danışırdı. Onun nitqi 30 dəqiqə çəkdi, amma bu çıxış çox təsirli idi. O, hər kəsdə böyük təəssürat yaratmışdı".

Van At Nquyen Heydər Əliyevin çıxışını bitirəndən sonra onunla səmimi ünsiyyətini də xatırlayır. O, sonradan başqa işlərdə çalışsa da, həmin görüşlər, Heydər Əliyevin tərcüməçisi olması qəlbində dərin izlər buraxıb. Təqaüdə çıxandan sonra Heydər Əliyevin Vyetnama səfəri və ona tərcüməçilik etməsi ilə bağlı xatirələrini daha geniş kütləyə çatdırmaq üçün yazdığı məqaləni yerli qəzetdə çap etdirib.

Bu, bir daha göstərir ki, Ulu Öndər Heydər Əliyevin 40 il əvvəl sovet nümayəndə heyətinin rəhbəri kimi Vyetnama səfəri təkcə keçmiş SSRİ ilə Vyetnam arasında münasibətlərin dərinləşməsi baxımından deyil, həm də Vyetnam xalqının Azərbaycana isti münasibətinin formalaşmasında xüsusi rol oynayıb.

# *İstanbulda "Azərbaycan XX əsrin əvvəllərində:* müstəqilliyə aparan yollar" adlı monoqrafiyanın təqdimatı olub

Oktyabrın 27-də İstanbulda tarix elmləri doktoru, professor Dilarə Seyidzadənin "Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar" adlı monoqrafiyasının təqdimatı olub. Kitab Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə həsr edilib. Kitabı türk dilinə tədqiqatçı-türkoloq Azad Ağaoğlu tərcümə edib.



AZƏRTAC xəbər verir ki, İstanbulun İbn Haldun Universitetində (İHU) keçirilən mərasim Azərbaycanın İstanbuldakı Baş konsulluğu və bu ali təhsil müəssisəsinin Heydər Əliyev Avrasiya Çalışmaları Uyğulama və Araşdırma Mərkəzi tərəfindən təşkil olunub.

Tədbirdə çıxış edən baş konsul Nərminə Mustafayeva Azərbaycanın müstəqillik uğrunda keçdiyi çətin yol və bunun nəticəsində Şərqdə ilk demokratik respublikanın məhz ölkəmizdə yaranmasından danışıb.

Bildirilib ki, ömrünün qısa olmasına baxmayaraq, Azərbaycan Demokratik Respublikası bizim bugünkü həyatımıza çox böyük təsir göstərdi, bizdə müstəqilliyə, azadlığa, inkişafa ümid yaratdı.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında əvəzsiz xidmətlərini xüsusi qeyd edən baş konsul ölkəmizin dünyaya tanıdılması, beynəlxalq səviyyəyə yüksəlməsinin məhz Ümummilli Liderimizin başlatdığı siyasi yolun nəticəsi olduğunu deyib. Bildirilib ki, Prezident İlham Əliyev tərəfindən bu siyasət uğurla davam etdirilib və nəticədə Azərbaycan öz gücünə 30 il sonra ərazi bütövlüyünü tam təmin edib və bu, müstəqil Azərbaycanın yeni dövrünə yeni üfüqlər açıb. Çıxışında tarixboyu Türkiyənin Azərbaycan xalqı üçün xüsusi əhəmiyyət kəsb etdiyini deyən Dilarə Seyidzadə bildirib ki, bu birliyin ən gözəl təzahürü Ulu Öndərimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamında özünü tapıb.

Gənclik illərini xatırlayan professor ömrünün bu dövrünü Heydər Əliyevin köməkçisi olaraq keçirdiyini özünə şərəf hesab etdiyini deyib. Tarix elminin həyatımızdakı rolundan danışan Dilarə Seyidzadə, Ümummilli Liderimizin sadəcə öz tariximizi mükəmməl bilməsi ilə kifayətlənmədiyini, getdiyi hər bir ölkənin tarixini də öyrəndiyini söyləyib.

Professor gənclərə yalnız Azərbaycanın deyil, dünya tarixini yaxından öyrənməyi tövsiyə edib.

Qeyd edilib ki, dörd dildə nəşr olunan kitab XIX əsrin sonu - XX əsrin əvvəlləri Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsinin mühüm dövrlərindən bəhs edir.

Nəşrdə bildirilib ki, islahatlardan sonrakı bu dövrdə çar Rusiyasında baş verən əsaslı ictimai-siyasi və iqtisadi dəyişikliklər məcrasında Azərbaycanda əmələ gəlmiş sahibkarların görkəmli nümayəndələri, onların ideoloqları və ziyalılar bütün imkanlardan istifadə edərək xalqın milli mənlik şüurunun oyanması, maariflənməsi, siyasi mədəniyyət səviyyəsinin yüksəlməsi, vətəndaşlıq hüquqlarını tam əldə etməsi üçün mübarizəyə başçılıq etdilər.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması üçün zəmin hazırlamış bu dövrün tədqiq olunduğu kitabda XX əsrin əvvəllərində Azərbaycanda cərəyan edən ictimai-siyasi proseslərin geniş mənzərəsi öz əksini tapıb, mükəmməl və hərtərəfli təhlil olunub.

# İraq nümayəndə heyəti ilə görüş



Oktyabrın 27-də Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli ölkəmizdə səfərdə olan İraq Respublikası Nümayəndələr Şurasının İnsan haqları komitəsinin sədri Ərşad Rəşad Əl-Salihinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan F.İbrahimli bildirib ki, bu səfər Azərbaycan xalqı üçün əlamətdar dövrə təsadüf edir. Azərbaycan xalqı öz suverenliyini tam bərpa etməyin sevincini yaşayır. Vitse-spiker xalqlarımızı bir-birinə bağlayan tarixi, dini, mədəni dəyərlərdən söz açıb, Azərbaycan və İraq arasında əlaqələrin yüksək səviyyədə olmasından danışıb.

Ölkələrimizin parlamentləri arasındakı münasibətlərə toxunan Fəzail İbrahimli bu sahədə əlaqələrin inkişafında Milli Məclisin İraqla parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun xüsusi rolunu qeyd edib.

Səmimi görüşə görə təşəkkürünü bildirən İraq Respublikası Nümayəndələr Şurasının İnsan haqları komitəsinin sədri Ərşad Rəşad Əl-Salihi ölkələrimiz arasındakı dostluq və qardaşlıq münasibətlərindən danışıb, İraqın seçki sistemi, parlamentin fəaliyyət prinsipləri barədə məlumat verib.

Söhbət zamanı qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi perspektivləri və tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# İraq Respublikası Nümayəndələr Şurasının nümayəndə heyəti Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib





Oktyabrın 27-də ölkəmizdə səfərdə olan İraq Respublikası Nümayəndələr Şurasının İnsan haqları komitəsinin sədri Ərşad Rəşad Əl-Salihinin başçılıq etdiyi nümayəndə heyəti Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə tər çiçəklər düzüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sonra nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edərək, ölkəmizin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb. Eyni zamanda "Əbədi məşəl" abidəsi ziyarət olunub. Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin Azərbaycan - İraq parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri İlham Məmmədov və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# "Qadın və uşaq hüquqları üzrə qanunvericiliyin təkmilləşdirilməsi: mövcud vəziyyət və yeni çağırışlar" mövzusunda ictimai dinləmə keçirilib



Oktyabrın 27-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin İnsan hüquqları komitəsi ilə birgə "Qadın və uşaq hüquqları üzrə qanunvericiliyin təkmilləşdirilməsi: mövcud vəziyyət və yeni çağırışlar" mövzusunda ictimai dinləməsi keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Azərbaycanda qadın və uşaq hüquqlarının müdafiəsinin hər zaman prioritet məsələ olduğunu qeyd edib. Komitə sədri ölkəmizdə qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində mükəmməl qanunvericilik bazasının olduğunu deyib.

Hicran Hüseynova parlamentin sədri Sahibə Qafarovaya bu ictimai dinləmənin keçirilməsinə şərait yaratdığına görə təşəkkürünü ifadə edib. Bildirib ki, respublikamız qadın və uşaq hüquqları ilə bağlı bir çox mühüm beynəlxalq konvensiyaları ratifikasiya edib və bununla bağlı müvafiq hesabatlar təqdim edilir. Komitə sədri BMT-nin aidiyyəti komitələri tərəfindən hökumətlərə tövsiyələrin təqdim edildiyini söyləyib. Qeyd edib ki, bu tövsiyələrin sırasında elə məsələlər var ki, onlar Milli Məclisin komitə və plenar iclaslarında da nəzərdən keçirilib. Belə ki, ödənişli atalıq məzuniyyəti, məişət zorakılığı ilə bağlı cinayət hadisələrinin kriminallaşdırılması, erkən nikahların qarşısının alınması, aliment fondunun yaradılması, zərərçəkənlər üçün sığınacaqların sayının artırılması, məhkəmə və vəkillik xidmətlərinin əlçatan olması, qadınların məşğulluğu ilə bağlı və digər təkliflər verilib və bunlar tədricən öz həllini tapır.

Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin son illərdə həyata keçirdiyi tədbirlərin dövlətin və vətəndaşların mənafelərinə xidmət etdiyini deyib. O bu yaxınlarda Azərbaycan qadınlarının VI qurultayının keçirildiyini xatırlayaraq, bu tədbirdə qadınların, xüsusilə şəhid analarının önəmli ictimai missiyasının, onların dövlət və cəmiyyət həyatında xidmətlərinin, ailə institutunun qorunmasında rolunun yüksək dəyərləndirildiyini söyləyib.

Komitə sədri rəhbərlik etdiyi Sosial Tədqiqatlar Mərkəzində müzakirəyə çıxarılan bu mövzu ilə bağlı araşdırmaların aparıldığını qeyd edib. O, qadınlar və kişilər arasında əməkhaqqı sahəsində mövcud olan fərqlərdən danışıb, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin hesabatında bu məsələ ilə bağlı yer alan rəqəmləri diqqətə çatdırıb. Komitə sədri çıxışının sonunda gender bərabərliyi strategiyası, məişət zorakılığının aradan qaldırılması, səhiyyə ilə bağlı qadın və uşaqların əlçatanlığının təmin edilməsi və digər məsələlər barədə təkliflərini səsləndirib.

Tədbirdə iştirak edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova BMT-nin Uşaq hüquqlarına və qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılmasına dair komitələrinin Azərbaycanın dövri hesabatlarına əsasən tövsiyələr verdiyini söyləyib. O, ölkə parlamentinin bu məsələləri hər zaman diqqətdə saxladığını qeyd edib, müzakirə olunan mövzu ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinin, bu sahədə müasir çağırışların nəzərə alınmasının vacibliyindən bəhs edib. Komitə sədri parlamentin təmsilçilik funksiyasının yüksək səviyyədə yerinə yetirildiyini qeyd edib, qəbul olunan qanunların icrası mexanizmlərinin səmərəliliyinin təmin edilməsində parlamentin rolundan danışıb.

Bahar Muradova Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu qadın siyasətinin bu gün uğurla davam etdirildiyini bildirib. Dövlətimiz tərəfindən qadın və uşaq hüquqlarının müdafiəsinə xüsusi diqqət yetirildiyini, bu sahədə ölkəmizdəki mövcud vəziyyətin bir sıra ölkələrdən fərqlənərək yüksək səviyyədə olduğunu deyib. O, həyata keçirilən tədbirlərə baxmayaraq, ölkəmizdə müəyyən problemlərin olduğunu da qeyd edib. Bu problemlərin həlli ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi, onların aradan qaldırılmasında cəmiyyətin rolu barədə fikirlərini açıqlayıb.

Komitə sədri BMT-nin müvafiq komitələrinin ölkəmizdəki vəziyyəti dəyərləndirmələri, çıxış yolları ilə bağlı tövsiyələrinin bizim mövqeyimizlə əsasən eyni olduğunu, lakin bəzi istisnaların da mövcudluğunu söyləyib. O, bu tövsiyələrə əməl edilməsində hər bir ölkənin dövlət və milli maraqlarının nəzərə alınmasının əhəmiyyətindən danışıb.

Mövzu ətrafında müzakirələrdə Milli Məclisin deputatları Jalə Əliyeva, Tahir Kərimli, Razi Nurullayev, Elşad Mirbəşiroğlu, Rauf Əliyev, parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev, o cümlədən bir sıra aidiyyəti qurumların təmsilçiləri və QHT nümayəndələri qadın və uşaq hüquqlarının müdafiəsi, gender bərabərliyi sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsi, bu sahədə aidiyyəti qurumlar tərəfindən atılan addımlar barədə fikirlərini, qeyd və təkliflərini açıqlayıblar.

Dinləmənin sonunda parlamentin komitə sədri Hicran Hüseynova müzakirələrin səmərəli keçdiyini, insanları düşündürən məsələlərin, bəzi narahatedici məqamların diqqətə çatdırıldığını söyləyib, onların aradan qaldırılması istiqamətində əməli addımların atılmasının vacibliyindən danışıb.

*"Azərbaycan"*

# Qardaşlıq və dostluq münasibətləri günbəgün möhkəmlənir



Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətinin Türkiyəyə rəsmi səfəri çərçivəsində Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvləri Türkiyə Böyük Millət Məclisinin Azərbaycanla dostluq qrupunun üzvləri ilə görüşüblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım dost və qardaş ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə uğurlu inkişafından danışaraq, əlaqələrimizin gücləndirilməsində hər iki ölkənin dövlət başçılarının xüsusi rolunu qeyd edib. O, ölkələrimizin parlamentləri arasında da möhkəm əməkdaşlığın mövcud olduğunu deyərək, qarşılıqlı səfərlərin, keçirilən görüşlərin bu əlaqələrin möhkəmləndirilməsi baxımından vacibliyini vurğulayıb. Dostluq qrupunun rəhbəri Milli Məclisin Sədri Sahibə Qafarovanın bu səfərinin də münasibətlərimizin daha da inkişafına töhfə verəcəyinə inamını ifadə edib.

Görüşdə Milli Məclisin Səhiyyə komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Əhliman Əmiraslanov ölkələrimiz arasında münasibətlərin Prezident İlham Əliyevin ifadə etdiyi kimi, dünyada oxşarı olmadığını söyləyib. Qeyd edib ki, qardaşlıq və dostluq münasibətlərimiz günbəgün möhkəmlənir və genişlənir. O, həmçinin qanunverici orqanlarımızın da iki qardaş və dost ölkələr arasında əlaqələrin dərinləşməsinə özünəməxsus töhfələr verdiyini qeyd edərək, bu istiqamətdə görülən işlərin təqdirəlayiq olduğunu diqqətə çatdırıb.

Görüşdə çıxış edən Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvləri Eldar Quliyev, Cavanşir Paşazadə, Ağalar Vəliyev, Fazil Mustafa, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri Kemal Çelik, Cantürk Alagöz, Orhan Erdem, Mehmet Şahin, Uğur Bayraktutan qardaş və dost ölkələrimiz arasında münasibətlərin hazırkı yüksək səviyyəsindən, parlamentlərarası münasibətlərin daha da dərinləşməsindən danışıb və qarşılıqlı maraq doğuran digər məsələlər haqqında fikirlərini ifadə ediblər.

*"Azərbaycan"*

# Dostluq qruplarının fəaliyyəti iki ölkə arasında münasibətlərin inkişafına xidmət edir



Oktyabrın 27-də Milli Məclisin Azərbaycan-İraq parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvləri İraq Respublikası Nümayəndələr Şurasının üzvləri ilə görüşüblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan-İraq parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri İlham Məmmədov İraq Nümayəndələr Şurasının İnsan haqları komitəsinin sədri Ərşad Rəşad Əl-Salihinin başçılıq etdiyi nümayəndə heyətini Azərbaycan parlamentində görməkdən məmnun olduqlarını bildirib. O, ölkələrimiz arasındakı tarixi əlaqələrdən söz açaraq Azərbaycanın İraqla həm dövlətlərarası, həm də parlamentlərarası münasibətlərinin yüksək səviyyədə olmasından danışıb.

İraq Respublikası Nümayəndələr Şurasının İnsan haqları komitəsinin sədri Ərşad Rəşad Əl-Salihi onlara göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib. Ərşad Salihi bölgədə gedən prosesləri yaxından izlədiklərini, Qarabağın azad olmasına sevindiklərini qeyd edərək, Azərbaycanın regionda sülhün və tərəqqinin möhkəmləndirilməsi uğrunda səylərini yüksək qiymətləndirib. O, Azərbaycanla müxtəlif sahələrdə əlaqələri inkişaf etdirməkdə maraqlı olduqlarını diqqətə çatdırıb.

Görüşdə Milli Məclisin İraqla parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvləri Anar İsgəndərov, Rəşad Mahmudov, İraq Respublikası Nümayəndələr Şurasının üzvləri Nuruldin Hüssein Qublan, Luqman Əhməd Nəcm, Qərib Əsgər Naqi qarşılıqlı əlaqələr, parlamentlərarası münasibətlərin inkişaf etdirilməsi perspektivləri barədə fikirlərini bölüşüblər. Deputatlar vurğulayıblar ki, parlamentlərarası dostluq qruplarının fəaliyyəti iki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsinə xidmət edir.

*"Azərbaycan"*

# Azərbaycanla Serbiya arasında strateji tərəfdaşlıq mövcuddur



Azərbaycan Respublikası Milli Məclisinin Serbiya ilə parlamentlərarası İşçi qrupunun üzvləri Serbiya parlamentinin dəvəti ilə bu ölkənin Belqrad şəhərində səfərdə olublar.

Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu diplomatiyası nəticəsində Azərbaycanla Serbiya arasında strateji tərəfdaşlıq mövcuddur və bu əlaqələr ildən-ilə daha da inkişaf edir. Bunun nəticəsidir ki, hər iki ölkənin parlamentləri arasında da sıx əməkdaşlıq yaranmışdır. Milli Məclisin Serbiya ilə parlamentlərarası İşçi qrupunun üzvlərinin Serbiyaya səfəri də məhz bu əlaqələrin daha da gücləndirilməsi məqsədi daşıyırdı. Səfər proqramı çərçivəsində millət vəkilləri maraqlı görüşlər keçiriblər. Öncə hər iki ölkənin millət vəkilləri Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Belqradın mərkəzi parkında ucaldılmış abidəsini ziyarət ediblər və önünə tər çiçəklər düzüblər. Dostluq qrupunun üzvləri eyni zamanda Belqradın azadlığı uğrunda həyatlarını qurban vermiş naməlum əsgərin abidəsini ziyarət ediblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində Azərbaycan parlamentinin üzvləri Serbiyanın ali qanunvericilik orqanı olan Milli Assambleyanın spikeri Vladimir Orliçlə görüblər. Serbiya Parlamentinin spikeri bu ilin oktyabr ayının əvvəlində Azərbaycana etdiyi səfər haqqında təəssüratlarını, xüsusilə də Azərbaycan Prezidenti İlham Əliyevlə olan görüşü, işğaldan azad olunmuş Qarabağ torpaqlarında olarkən keçirdiyi hisslər haqqında danışıb. O, ölkəsinin Azərbaycanla strateji tərəfdaşlığından və səmərəli əməkdaşlığından məmnuniyyətlə bəhs edib. Vladimir Orliç minnətdarlıqla Serbiyanın çətin günlərində Azərbaycan Prezidenti İlham Əliyevin dəstəyini qeyd edib.

Milli Məclisin üzvləri, həmçinin səfər çərçivəsində Serbiya-Azərbaycan parlamentlərarası dostluq qrupunda, Serbiya parlamentinin Beynəlxalq əlaqələr komitəsində müxtəlif görüşlər keçiriblər. Görüşlərdə deputatlar iki ölkə arasında əlaqələri, prioritet məsələlərlə bağlı, xüsusilə də beynəlxalq təşkilatlarda koordinasiyalı fəaliyyəti müzakirə ediblər.

Səfərdə Milli Məclisin Azərbaycan-Serbiya parlamentlərarası İşçi qrupunun rəhbəri Məlahət İbrahimqızı, üzvləri Asim Mollazadə, Mahir Abbaszadə və Jalə Əhmədova iştirak ediblər.

*"Azərbaycan"*

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN



# Bu il Azərbaycanda ağır cinayətlər törədən 178 cinayətkar qrup zərərsizləşdirilib

**İlin 9 ayında ağır və xüsusilə ağır cinayətlər törətmiş 466 nəfərdən ibarət 178 cinayətkar qrup zərərsizləşdirilib.**





AZƏRTAC xəbər verir ki, bu barədə oktyabrın 27-də Daxili İşlər Nazirliyində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinin, şəhər, rayon polis orqanlarında vətəndaşların müraciətlərinə baxılması və qəbulu işinin vəziyyətinə, eləcə də cari ilin 9 ayının yekunlarının müzakirəsinə həsr olunan onlayn formatda kollegiya iclasında məlumat verilib.

Giriş nitqi ilə çıxış edən daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov hər üç məsələnin fundamental insan hüquqlarının müdafiəsində, vətəndaş məmnunluğunun təmin edilməsində, hər bir şəxsin qanuni mənafelərinin cinayətkar qəsdlərdən qorunmasında mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Müzakirələrdən əvvəl nazir V.Eyvazov Xankəndi şəhəri və ona yaxın ərazilərdə yerləşmiş Ermənistan ordusunun qalıqlarının basdırdığı minaların bu ilin sentyabr ayının 19-da partlaması nəticəsində daha 6 nəfərin, o cümlədən polis əməkdaşlarının həlak olması, həmin gün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz tərəfindən həyata keçirilmiş lokal antiterror tədbirlərində iştirak edən Daxili İşlər Nazirliyinin şəxsi heyətindən 20 nəfərin şəhid olmasını və 24 nəfərin yaralanmasını, ümumilikdə isə Vətən müharibəsi də nəzərə alınmaqla Daxili Qoşunların və polisin 78 şəhid verdiyini və 370 nəfərin yaralandığını diqqətə çatdırıb. Bütün şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Vilayət Eyvazov oktyabrın 15-də də ölkəmizin növbəti dəfə tarixi anların və hadisələrin şahidi olduğunu, Prezident İlham Əliyevin Xankəndidə, Xocavənddə, Xocalıda və terrorçulardan təmizlənmiş digər ərazilərdə Dövlət bayrağımızı ucaltdığını, habelə Daxili İşlər Nazirliyinin Xankəndi şəhər polis şöbəsinin yaradıldığını, Xocalı, Tərtər və Xankəndiyə müvəqqəti komendantların təyin edildiyini, işğaldan azad edilmiş həmin ərazilərdə təhlükəsizliyin və asayişin təmin edilməsi üçün bütün zəruri tədbirlər görüldüyünü, hər bir evin, hər bir binanın və infrastruktur obyektlərinin mühafizəyə götürüldüyünü, qanunsuz silahlı birləşmələrin atıb getdikləri mövqelərdən çoxsaylı silah-sursatın və hərbi texnikanın aşkarlandığını qeyd etdi. Bütövlükdə polisin və Daxili Qoşunların Qarabağın bütün ərazisində xidməti vəzifələrini böyük məsuliyyətlə, peşəkarlıqla yerinə yetirdiyini, təhlükəsizliyi qoruduğunu, bu prosesin davamlı olacağını vurğuladı.

Nazir bildirib ki, daxili işlər orqanları və Daxili Qoşunlar qanunla müəyyən edilmiş vəzifələri cari ilin 9 ayında da layiqincə yerinə yetiriblər. Ümumi cinayətlərin açılması 86,8 faiz təşkil edib, nazirlik və prokurorluq üzrə qeydə alınan 26 min 778 cinayətin 88,6 faizi açılıb.

Baş Prokurorluqla birgə görülmüş tədbirlərlə keçmiş illərdən bağlı qalan 336, o cümlədən bir neçə xüsusilə ağır cinayətin açılması təmin edilib.

Qəsdən sağlamlığa ağır zərər vurmaların, xuliqanlıqların, quldurluqların, dələduzluqların, hədə-qorxu ilə tələb etmələrin, soyğunçuluqların və avtonəqliyyat vasitəsini qaçırmaların açılması yaxşılaşıb.

Odlu silahın tətbiqi ilə törədilən cinayətlər, oğurluqlar, quldurluqlar, soyğunçuluqlar, xuliqanlıqlar, avtonəqliyyat vasitəsinin qaçırılması faktlarının sayı azalıb.

Ağır və xüsusilə ağır cinayətlər törədən 466 nəfərdən ibarət 178 cinayətkar qrup zərərsizləşdirilib. Axtarılan təqsirləndirilən şəxslərin 83,3 faizi tutulub. Törədilmiş cinayətlər nəticəsində vətəndaşlara dəymiş maddi ziyanın 79, xırda talamalar nəticəsində vurulmuş ziyanın 93,1 faizi ödətdirilib.

Ölkədə narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri də nəzarətdə saxlanılıb. Qanunsuz dövriyyədən ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 ton 19 kiloqram çox, yəni 4 ton 18 kiloqram narkotik vasitə və 343 kiloqram psixotrop maddə çıxarılıb, 244 nəfərdən ibarət 110 cinayətkar qrup zərərsizləşdirilib və bu cinayətlərə görə ümumilikdə 6344 nəfər məhkəmə məsuliyyətinə verilib. Antinarkotik təbliğat sahəsində işlər də davamlı olmaqla təhsil müəssisələrində 1028 maarifləndirmə tədbiri keçirilib.

Yol hərəkəti təhlükəsizliyinin təmini və təşkili, qəzaların qarşısının alınması, sürücü intizamının artırılması məqsədilə davam etdirilən tədbirlərlə respublika üzrə qeydə alınmış yol-nəqliyyat hadisələrinin sayı 55 fakt, qəzalar nəticəsində xəsarət alanların sayı 65 nəfər azalıb. Müəyyən edilmiş yol hərəkəti qayda pozuntularının sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,7 milyondan çox artaraq 5,1 milyona çatıb və onların 64 faizi xüsusi texniki vasitələrlə aşkarlanıb.

Vətəndaşların müraciətlərinə baxılması, qəbulların keçirilməsi, şikayətlərə çevik reaksiya verilməsi sahəsində görülən işlər ötən 9 ayda da gündəlik nəzarətdə qalmaqla daxil olmuş 75 min 146 müraciətə baxılıb, habelə bu mühüm işə paralel olaraq kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə respublikanın 9 şəhər və rayonunda 3 minə yaxın vətəndaşın qəbulu həyata keçirilib. Qaldırılan problemlərin həlli təmin edilib, təşəbbüskarlardan 2500-dən çox minnətdarlıq məktubu alınıb.

Gündəlikdəki məsələlər üzrə nazirliyin aidiyyəti baş idarələrinin və bir sıra ərazi orqanlarının rəisləri görülmüş işlər, əldə edilmiş nəticələr, fəaliyyətin daha da yaxşılaşdırılması məqsədilə həyata keçirilən tədbirlər barədə məruzə ediblər.

Nazir V.Eyvazov cari ilin 9 ayında cinayətkarlığa qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmini sahəsində qarşıya qoyulmuş vəzifələrin bütövlükdə layiqincə yerinə yetirildiyini vurğulayıb.

Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə əldə olunmuş müsbət nəticələri yüksək qiymətləndirən nazir bu istiqamətdə fəaliyyətin daha böyük əzm və qətiyyətlə həyata keçirilməsini tapşıraraq diqqəti qarşıda duran vəzifələrə çəkib, həmçinin yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirən hər bir şəxsə, o cümlədən blogerlərə və digər ictimai fəallara, qeyri-hökumət təşkilatlarının nümayəndələrinə və media mənsublarına təşəkkürlərini bildirib.

Paytaxtda nəqliyyat sıxlığının aradan qaldırılması ilə bağlı görülən işlərin üzərində də dayanan nazir yolların kənarında qeyri-qanuni saxlanılan və nəqliyyatın normal axınına maneçilik törədən avtomobillərin kənarlaşdırılmasının və digər qanunazidd halların aradan qaldırılmasının, ümumən bu sahədə tədbirlərin gücləndirilməsinin zəruriliyinə toxunub, hərəkətin təhlükəsizliyinin təmini ilə əlaqədar qarşıda duran vəzifələri müəyyən edib və aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar verib.

Vətəndaş məmnunluğunun təmin edilməsində, dövlətə inam və etimadın güclənməsində böyük əhəmiyyət kəsb edən müraciətlərə baxılması işinə xüsusi diqqət çəkən nazir V.Eyvazov şikayətlərə çevik reaksiya verilməsi işinin yeni keyfiyyət səviyyəsinə yüksəldilməsi üçün əlavə tapşırıqlar verib.

Nazir bəzi ərazi orqanlarının fəaliyyətində olan müəyyən nöqsan və çatışmazlıqlara da diqqət çəkərək onların aradan qaldırılması üçün lazımi tədbirlərin həyata keçirilməsini, hər bir şəxsin qanuni mənafeyinin, hüquq və azadlığının bundan sonra da etibarlı qorunmasını, bütövlükdə vətəndaş məmnunluğunun davamlı surətdə təmin olunmasını, şəxsi heyətin etik davranış qaydalarına daim riayət etməsini, qanunçuluğun möhkəmləndirilməsini və peşəkarlıq səviyyəsinin günbəgün artırılmasını tələb edib.

Kollegiya iştirakçılarının diqqətini ötən illər ərzində beynəlxalq təşkilatların nümayəndə heyətləri ilə baş tutmuş görüşlərə də yönəldən nazir V.Eyvazov ölkədə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirləri xüsusi vurğulayaraq qeyd edib ki, bu sahədə fəaliyyətin effektivliyinin artırılması, institusional mexanizmlərin təkmilləşdirilməsi üzrə aparılan müzakirələr və görülmüş işlər çox faydalı olub.

Konkret olaraq, fəaliyyətin müasir tələblərə və mütərəqqi beynəlxalq təcrübəyə uyğun qurulmasında mühüm əhəmiyyət kəsb edən şəxsi heyətin professional hazırlığının artırılması məqsədilə son 5 ildə təkcə insan hüquqları üzrə Azərbaycanda və xarici dövlətlərdə keçirilən seminarlarda, təlim kurslarında, konfranslarda və digər tədbirlərdə daxili işlər orqanlarının 3 mindən çox əməkdaşının iştirak etdiyini, Polis Akademiyasında keçirilən məşğələlərə Avropa ekspertlərinin dəvət edildiyini, treninqlərin onlar tərəfindən də keçiriləcəyini bildirib, habelə aidiyyəti tədris proqramlarının qısa müddətdə yenilənməsinə dair tapşırıqlar verib. "Açıq hökumətin təşviqinə və Korrupsiyaya qarşı mübarizəyə dair" Milli Fəaliyyət Planları əsasında idarədaxili nəzarət mexanizmlərinin, aidiyyəti vəzifə təlimatlarının təkmilləşdirildiyini, aidiyyəti qanunvericilik aktlarına beynəlxalq təcrübəyə uyğun dəyişikliklər edilməsi üçün layihələrin hazırlandığını, tutulmuş və həbs edilmiş şəxslərin beynəlxalq konvensiyalarda təsbit olunmuş bütün hüquqlarının və dindirmələrin şəffaflığının təmin edilməsi mövzularında respublikanın istintaq qurumlarının əməkdaşları üçün virtual təlimlərin təşkil edildiyini nəzərə çatdırıb. Nazirlik tərəfindən həyata keçirilən qətiyyətli tədbirlərin məntiqi nəticəsi kimi şəxsi heyət arasında neqativ halların minimuma endiyini, ötən 5 ildə xidməti intizam və etik davranış qaydalarını pozmuş 1286 əməkdaş barəsində araşdırmalar aparılaraq 121 nəfərin xidmətdən xaric edildiyini, 139 nəfərin tutduğu vəzifədən azad olunduğunu, 1026 nəfər haqqında başqa növ məsuliyyət tədbirləri görüldüyünü, cari ilin ötən dövründə isə polisə gətirilmiş şəxslərə qarşı kobudluğa yol vermiş 7 əməkdaşın xidmətdən xaric edildiyini, 16 əməkdaşın tutduğu vəzifədən azad olunduğunu, daha 21 əməkdaşa başqa növ intizam tənbehlərinin verildiyini qeyd edib.

Nazir bütün ərazi polis orqanlarının rəislərindən insan hüquqlarının müdafiəsi sahəsində vəziyyətin, xüsusən tutulmuş və ya həbs edilmiş şəxslərin hüquqlarının qorunması işinin gündəlik nəzarətdə saxlanılmasını tələb edib, onlara qarşı kobudluğun, hər hansı formada pis rəftarın yolverilməzliyini, qanundankənar davranışın ciddi məsuliyyət doğuracağını, normativ-hüquqi aktların tələblərinə dönmədən riayət olunmasının vacibliyini xatırladıb, bu istiqamətlərdə fəaliyyətin nəticələrinə görə hər bir rəhbər vəzifəlinin şəxsən məsuliyyət daşıdığını nəzərə çatdırıb.

Bütövlükdə Daxili İşlər Nazirliyinin beynəlxalq təşkilatlarla əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirdiyini, qarşılıqlı əlaqələrin gələcəkdə də konstruktiv şəkildə həyata keçiriləcəyini ifadə edib.

Vilayət Eyvazov daxili işlər orqanlarına göstərdiyi ali diqqət və qayğıya, şəxsi heyətinin fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirib və əmin edib ki, respublikada asayişin, təhlükəsizliyin, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzifələr bundan sonra da böyük əzm və qətiyyətlə davam etdiriləcək.

# "Naxçıvandan başlanan yol" mövzusunda konfrans keçirilib



Naxçıvan Muxtar Respublikasında Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Naxçıvandan başlanan yol" mövzusunda konfrans keçirilib. Konfrans Naxçıvan Sahibkarlar Konfederasiyasının təşkilatçılığı, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) dəstəyi ilə baş tutub.

ASK-dan AZƏRTAC-a bildirilib ki, konfransdan əvvəl iştirakçılar Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, onun xatirəsini yad ediblər. Ümummilli Liderin həyat yolunu əks etdirən eksponatlarla tanış olublar.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə başlayan konfransı giriş sözü ilə açan Naxçıvan Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov 2023-cü ilin ölkəmiz üçün böyük əlamətdar hadisələrlə yadda qalacağını vurğulayıb. Bu il Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinin vətənimizin hər yerində təntənəli şəkildə qeyd edildiyini, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin prezidentlik fəaliyyətinin 20 illiyində suverenliyimizin bütün ərazilərimizdə bərpa olunduğunu söyləyib: "Ümummilli Liderimizin həyatında Naxçıvan xüsusi səhifələrdən birini tutur. Naxçıvandan başlanan yol Azərbaycan dövlətçiliyinin qorunmasına, ölkəmizin inkişafına, gələcək uğurlara apardı.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Ümummilli Liderin şanlı həyat yolu, dövlət müstəqilliyimizin qorunması istiqamətində gərgin fəaliyyəti, ölkəmizin xarici siyasətinin qurulması və daxili sabitliyin əldə olunması sahəsində gördüyü işlərdən danışıb. F.Nəcəfli İlham Əliyevin prezidentlik fəaliyyətinə başlamasından ötən 20 ildə ölkəmizin əldə etdiyi siyasi və iqtisadi uğurları qeyd edərək, 44 günlük Vətən müharibəsində qazanılan Zəfər, qarşıda duran vəzifələr barədə iştirakçılara məlumat verib.

"Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil, ümumiyyətlə region üçün böyük əhəmiyyət daşıyır. Zəngəzur dəhlizi qardaş Türkiyə ilə logistikada mühüm həlqədir", - deyə F.Nəcəfli qeyd edib.

Səlahiyyətli nümayəndə Naxçıvanın inkişafı üçün qəbul olunan sosial-iqtisadi proqramın əsas istiqamətləri, iqtisadiyyatın ayrı-ayrı sahələrinin, xüsusən də sənaye sektorunun inkişafı üzrə mühüm addımlar atılacağını bildirib: "Naxçıvanın azad iqtisadi zonaya çevrilməsi üçün proqram hazırlanır və Naxçıvanda xüsusi iqtisadi rejimi əhatə edən layihənin üzərində işləyirik".

O, sahibkarlığın inkişafı, investisiya qoyuluşlarının təminat verilməsinə və digər tədbirlərin Naxçıvanda özəl sektorun inkişafına mühüm töhfə verəcəyini qeyd edib.

Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev müasir Azərbaycanın banisi Heydər Əliyevin şərəfli həyat yoluna toxunub. "Bizim üçün önəmli bir tarix də Ulu Öndərimizin layiqli davamçısı İlham Əliyevin Prezident kimi fəaliyyətinin 20 ilinin tamam olmasıdır. Son 20 il Azərbaycanın dövlətçilik tarixinə dinamik və hərtərəfli inkişaf dövrü kimi daxil olub. Ölkə həyatının bütün sahələrində böyük uğurlar, misilsiz və qürurverici qələbələr əldə edilib. Azərbaycanın zəngin iqtisadi, siyasi və hərbi potensialı yaradılıb. Bütün bu nailiyyətlərin təməlində Ulu Öndər Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin inamla davam etdirdiyi uzaqgörən daxili və xarici siyasət xətti dayanır", - deyə M.Musayev qeyd edib.

Naxçıvanın iqtisadiyyat naziri Tapdıq Əliyev, Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifələrini icra edən Xəyalə Dadaşova, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Elçin Əliyev çıxış edərək əldə olunmuş uğurlardan danışıblar.

Sonra tədbir Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən filmin nümayişi və sahibkarlar üçün yaradılan müzakirə platforması ilə yekunlaşıb.

# Azərbaycanın Zəfər Günü və Dövlət Bayrağı Günü ilə əlaqədar Stokholmda film təqdimatı olub

İsveçin paytaxtı Stokholmda "Heydər Əliyev İli" çərçivəsində qarşıdan gələn Zəfər Günü və Dövlət Bayrağı Günü münasibətilə isveçli film mütəxəssisi Mikael Silkebergin "Odin kodu" adlı sənədli filminin təqdimatı keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Azərbaycanın İsveçdəki səfiri Zaur Əhmədov Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman əsgərlərimizin qanı və canı bahasına torpaqlarımızın düşmən tapdağından tam azad edilməsinin Azərbaycan tarixinin ən vacib məqamlarından biri olduğunu bildirib. Qazanılan Qələbəni beynəlxalq hüququn və tarixi ədalətin təntənəsi adlandıran Zaur Əhmədovun sözlərinə görə, sevindirici haldır ki, bu gün belə bir bayram Azərbaycanın və onun zəngin mədəniyyətinin böyük dostu Mikael Silkeberg tərəfindən ərsəyə gətirilmiş, Skandinaviya və Azərbaycan arasında tarixi əlaqələrə həsr olunan "Odin kodu" sənədli filminin təqdimatı ilə qeyd olunur.

Daha sonra çıxış edən filmin rejissoru Mikael Silkeberg UNESCO üzrə Azərbaycan Milli Komissiyasına və Azərbaycanın İsveçdəki səfirliyinə filmin ərsəyə gəlməsində verdikləri dəstəyə görə minnətdarlığını bildirib. Qeyd olunub ki, bu film Azərbaycan və Skandinaviya ölkələri arasında qədim tarixə əsaslanan əlaqələrdən və bu əlaqələrin öyrənilməsinə böyük əhəmiyyət verən məşhur norveçli alim və səyahətçi Tur Heyerdalın ölkəmizə səfəri, Ümummilli Lider Heydər Əliyevlə görüşlərdə səsləndirilən fikirlər və ortaya qoyulan hipotezalardan ilhamlanır. Tarixi əlaqələrimizin yeni metodikalara əsaslanmaqla öyrənilməsinə böyük əhəmiyyət verən alimlər və tarixçilər ölkəmizlə Skandinaviya regionu arasındakı bağları təhlil edirlər.

Daha sonra "Odin kodu" sənədli filmi nümayiş olunub.

Təqdimat mərasimində İsveç ictimaiyyətinin nümayəndələri ilə yanaşı, Türkiyə və Azərbaycan diasporunun təmsilçiləri də iştirak ediblər.

# Azərbaycan ilə Litva arasında hərbi tibb sahəsində əməkdaşlıq müzakirə edilib

Bakıda Azərbaycan və Litva Müdafiə nazirliklərinin hərbi tibb mütəxəssisləri arasında hərbi təbabət sahəsində təcrübə mübadiləsi məqsədilə görüş keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə hərbi tibb sahəsində əməkdaşlıq, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb. Litva nümayəndə heyətinə Azərbaycan Ordusunda tibb xidmətinin təşkili, eləcə də hərbi tibbi təchizatla bağlı brifinq təqdim olunub.

Sonra qonaqlar tibb idarəsinin tabeliyində fəaliyyət göstərən bir neçə hərbi tibb müəssisəsinə gələrək burada yaradılan şəraitlə yaxından tanış olublar.

# Zəfər bayrağı Xankəndidə dalğalanır



**Tarixə nəzər salsaq, Qarabağın dağlıq hissəsində erməni əhalisinin xeyli dərəcədə çoxaldılması XIX əsrin 20-ci illərində, xüsusilə Cənubi Qafqazın çar Rusiyası tərəfindən işğal edilməsindən sonra baş vermişdir. 1804-1813-cü, 1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrinin gedişində, həm də sonralar ermənilərin İran və Türkiyədən kütləvi surətdə Cənubi Qafqaza, o cümlədən Qarabağa köçürülməsi nəticəsində burada onların sayı ilbəil artmağa başladı. Bunu Rusiya ilə İran arasında bağlanmış Gülüstan (12 oktyabr 1813-cü il) və Türkmənçay (10 fevral 1828-ci il) müqavilələri kimi sənədlər də təsdiq edir.**

## Ermənilər Azərbaycan torpaqlarına məqsədli şəkildə köçürülmüşdü

Bunu rus tədqiqatçısı N.N.Şavrov belə təsvir edir: "1826-1828-ci illər müharibəsi qurtardıqdan sonra biz iki il ərzində - 1828-ci ildən 1830-cu ilə qədər 40 mindən çox İran və 84 min Türkiyə ermənisi köçürüb, onları demək olar ki, ermənilər yaşamayan Yelizavetpol və İrəvan quberniyalarında, Tiflis, Borçalı, Axalsıx, Axalkələk qəzalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirdik. Onların məskunlaşması üçün 200.000 desyatindən çox xəzinə torpağı ayrılmış və onlar üçün müsəlmanlardan 2 milyon manatlıqdan çox xüsusi sahibkar torpağı satın alınmışdı. Həmin ermənilər Yelizavetpol quberniyasının dağlıq hissəsi (Qarabağın dağlıq hissəsi nəzərdə tutulur - müəllif) və Göyçə gölünün sahillərində məskunlaşdırıldılar. Bunu da nəzərə almaq lazımdır ki, rəsmi olaraq köçürülən 124 min ermənidən başqa buraya qeyri-rəsmi köçənlərlə birlikdə onların sayı 200 min nəfərdən çoxdur".

Ermənilərin kütləvi şəkildə İrandan Qarabağa köçürülməsi nəticəsində burada yeni erməni kəndləri - Marağalı, Canyataq, Yuxarı Çaylı, Aşağı Çaylı və başqa kəndlər salınmışdı. Marağa şəhərindən Qarabağın dağlıq hissəsinə köçürülərək orada məskunlaşan ermənilər özləri 1828-ci ildən 150 il sonra, yəni 1978-ci ildə sovet dövründə, Ağdərə rayonunda həmin köçürülmənin şərəfinə abidə ucaltmış (abidənin üzərində ermənicə "Marağa-150" sözləri yazılmışdı), lakin XX əsrin 80-ci illərinin sonunda, yəni Azərbaycana qarşı əsassız ərazi iddiaları qaldırdıqları zaman həmin abidəni özləri məqsədyönlü şəkildə dağıtmışdılar. Bu fakt ermənilərin sonradan, təxminən iki əsr əvvəl Azərbaycan torpaqlarına köçürülməsini bir daha təsdiq edir.

Beləliklə, Türkmənçay müqaviləsindən sonrakı iki ildə çar Rusiyasının himayədarlığı nəticəsində ermənilər Azərbaycanın müxtəlif yerlərində, o cümlədən Qarabağın dağlıq hissəsində məskunlaşmağa nail oldular. Çarizmin ermənilərə olan bu diqqəti və himayədarlığı sonrakı illərdə də davam etdirildi. Belə ki, 1829-cu il Ədirnə müqaviləsi ilə Osmanlı imperiyasından da ermənilərin yenicə işğal olunmuş Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilməyə başlanıldı. Bu köçürülmə prosesinin davamı olaraq, 1877-1879-cu illər Rusiya-Türkiyə müharibəsi illərində də Cənubi Qafqaza daha 85 min erməni köçürüldü.

XIX əsrin sonu - XX əsrin əvvələrində Cənubi Qafqaza ermənilərin köçürülməsi daha geniş vüsət aldı. Belə ki, təkcə 1896-cı ildən - 1908-ci ilə kimi, yəni 13 il ərzində bu regiona 400 min erməni köçürüldü. Bu barədə N.N.Şavrov yazır: "1896-cı ildə general-adyutant Şeremetyev Zaqafqaziyada yaşayan ermənilər haqqında məlumatında onların sayının 900 min nəfər olduğunu göstərmişdir. 1908-ci ildə isə onların sayı 1 milyon 300 min nəfərə çatmışdır, yəni bu müddət ərzində ermənilər 400 min nəfərdən artıq çoxalmışlar. Hal-hazırda Zaqafqaziyada yaşayan 1 milyon 300 min ermənidən 1 milyon nəfəri diyarın köklü sakinləri deyillər və onlar buraya bizim tərəfimizdən köçürülmüşlər". Köçürülmə prosesi bütün XIX əsr boyunca davam etdirilmiş və bu da demoqrafik vəziyyətə müəyyən təsir göstərmişdir.

## 100 il əvvəl Azərbaycanın inzibati-ərazi bölgüsünün pozulması, "Dağlıq Qarabağ" termininin ortaya çıxması

Ali Baş Komandan, Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının dövlət bayrağını ucaldarkən çıxışında demişdir: "Azərbaycan torpağında heç bir tarixi, coğrafi və siyasi əsası olmayan Dağlıq Qarabağ Muxtar Vilayəti də 100 il bundan əvvəl - 1923-cü ildə yaradılmışdır. Bu, 100 ilin tarixidir. Görün, bu 100 il ərzində xalqımız nə qədər əzab çəkib, tarix bizi nə qədər sınağa çəkib. Əyilmədik, sınmadıq, o boyda böyük faciə ilə təkbaşına üz-üzə qalmışdıq, heç kim bizim yanımızda durmadı. Torpaqlarımız işğal altına düşəndə heç bir ölkə arxamızda dayanmadı, heç mənəvi dəstək də göstərmədilər. Bütün əsas güclər Ermənistanın arxasında idi və bugünkü tarix onu bir daha göstərir".

Ermənistanda sovet hakimiyyətinin elan edilməsindən dərhal sonra ermənilər Qarabağ məsələsini yenidən ortaya atdılar. Bununla da iki sovet respublikası arasında ixtilaflar artdı. 1921-ci il iyulun 4-5-də RK(b)P MK-nin Qafqaz bürosunun plenumu bu məsələni müzakirə etməli oldu. İyulun 5-də plenumun səhər iclasında Qarabağ məsələsinə yenidən baxıldı. Plenum RK(b)P MK-nin rəyini nəzərə alaraq yeni qərar qəbul etdi: "Müsəlmanlarla ermənilər arasında milli barışığın zəruriliyini, yuxarı və aşağı Qarabağın iqtisadi əlaqələri və daim Azərbaycanla sıx əlaqədə olmasını nəzərə alaraq Dağlıq Qarabağ Azərbaycan SSR-in hüdudlarında saxlanılsın, muxtar vilayətin tərkibinə daxil olan Şuşa şəhəri inzibati mərkəz olmaqla, ona geniş vilayət muxtariyyəti verilsin". Ermənistan tarixçilərinin və rəhbərliyinin dediyi kimi, əgər Dağlıq Qarabağ Ermənistan SSR-in tərkibində olsaydı, qərarda "Azərbaycan SSR-in hüdudlarında saxlanılsın" əvəzinə, "Azərbaycan SSR-ə verilsin" yazılardı.

Sənədlər təsdiq edir ki, Qarabağ bölgəsinin dağlıq hissəsinə XIX əsrdə məqsədli şəkildə köçürülmüş ermənilərə 1923-cü il iyulun 7-də sovet Rusiyasının himayədarlığı və bilavasitə iştirakı ilə Azərbaycan tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) adlı status verilmiş və nəticədə, Azərbaycanın inzibati-ərazi bölgüsü kobudcasına pozulmuşdu. 1923-cü ildə qəbul edilən bir qərarla Azərbaycanın Şuşa, Cavanşir və Qubadlı qəzalarının əraziləri bölünüb məqsədli şəkildə DQMV yaradılmışdı. Muxtariyyətin yaradılması haqqında qəbul edilən sənəddə vilayət mərkəzinin Xankəndi olması göstərilsə də, az sonra 1923-cü il sentyabrın 18-də Dağlıq Qarabağ vilayət partiya komitəsinin qərarı ilə Xankəndinin adı dəyişdirilərək bolşevik maskası geyinmiş, 1918-ci ilin martında azərbaycanlılara qarşı soyqırımın rəhbəri olan S.Şaumyanın şərəfinə "Stepanakert" adlandırıldı. Bununla da, Qarabağda Azərbaycanın toponimlərinin - tarixi yerlərinin, mahal, rayon və kənd adlarının dəyişdirilməsinin təməli qoyuldu.

Azərbaycan tərkibində süni şəkildə DQMV-nin yaradılması təkcə Azərbaycanın inzibati-ərazi bölgüsünün pozulması deyil, həm də Ermənistanın Azərbaycana qarşı gələcək ərazi iddiaları üçün bir vasitə olmuş və elə o vaxtdan da "Dağlıq Qarabağ" termini meydana çıxmışdır. Halbuki keçmiş SSRİ məkanındakı digər respublikalarda Qarabağda yaşayan ermənilərdən daha çox erməni yaşayırdı. Bundan başqa, Ermənistanda tarixən yaşayan azərbaycanlıların sayının Qarabağ ermənilərindən bir neçə dəfə çox olmasına baxmayaraq, Azərbaycan onlar üçün Ermənistandan milli-dövlət qurumu yaradılmasını heç vaxt tələb etməmişdi.

Nəticədə, bu muxtariyyət statusu Qarabağın dağlıq hissəsində tarixən yaşamış azərbaycanlıların rəyi nəzərə alınmadan və onların hüquqları kobudcasına pozularaq həyata keçirilməklə yanaşı, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ məqsədli şəkildə aran və dağlıq hissələrinə bölünmüşdür.

Qeyd etmək lazımdır ki, Ümummilli Lider Heydər Əliyev Qarabağın dağlıq və aran hissələrinin təsərrüfat, iqtisadi cəhətdən daha sıx birləşdirilməsinə çalışırdı. Bu, səbəbsiz deyildi. Erməni millətçiləri Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın dağlıq hissəsinin ölkəmizin digər rayonları ilə guya iqtisadi və təsərrüfat əlaqələrinin olmadığını, əhalinin ümumi sayında ermənilərin çoxluğunu iddia edirdilər.

Onların bu niyyətlərinin qarşısını almaqda, Yuxarı Qarabağın Aran Qarabağla və Azərbaycanın digər rayonlarla əlaqəsini daha da sıxlaşdırmaq, strateji əhəmiyyətli kommunikasiyaların sayını artırmaq böyük rol oynaya bilərdi. Bu baxımdan, Ağdam-Xankəndi dəmir yolu çəkildi və 1979-cu il yanvarın 12-də həmin yol Ümummilli Liderin iştirakı ilə istifadəyə verildi. Bu, Heydər Əliyevin Qarabağın dağlıq və aran hissələrinin, Azərbaycanın digər rayonlarının təsərrüfat və iqtisadi cəhətdən daha çox birləşdirilməsi sahəsində strateji addımı və böyük tarixi xidməti idi.

Bundan əlavə, Heydər Əliyevin göstərişi ilə Xankəndidə Pedaqoji İnstitutun açılması və orada Azərbaycan bölməsinin yaradılması Qarabağda elmi-mədəni mühitin formalaşmasına, əhalinin ali təhsil almasına əlverişli şərait yaratmışdı. Ümummilli Lider təkcə Yuxarı Qarabağın deyil, bütövlükdə Qarabağın inkişafına hər zaman diqqət yetirmiş və bu istiqamətində mühüm addımlar atılmışdır.

## Azərbaycanın Xankəndi şəhərinin tarixi

Xankəndi Azərbaycanın qədim yaşayış məskənidir. 1938-1939-cu illərdə Qarabağm Xankəndi ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı Eneolit və Tunc dövrünə aid kurqanlar aşkar edilmişdir. Azərbaycanın qədim yaşayış məskəni Xankəndi sovet dövründə inkişaf etmiş respublika tabeli şəhərlədən birinə çevrilmidi. Xankəndi şəhəri Bakı-Tbilisi dəmir yolunun Yevlax-Xankəndi qolunun son məntəqəsi, Yevlax-Laçın-Naxçıvan yolu kənarında, Qarqar çayı sahilində, Qarabağ silsiləsinin şərq ətəyində, Bakıdan 329 kilometr aralıda yerləşir. İnzibati cəhətdən Xankəndi şəhər əhatə dairəsinə Xankəndi şəhəri və Kərkicahan qəsəbəsi daxildir. Xankəndi şəhərinin ərazisi 8 kvadratkilometrdir. Xankəndi dəniz səviyyəsindən 830 metr yüksəklikdə yerləşir. 1979-cu il məlumatına görə, Xankəndi şəhərinin ümumilikdə əhalisi 38948 nəfər olmuşdur. 1991-ci ilə, yəni işğala qədər Kərkicahan qəsəbəsində isə 2 min nəfərə yaxın azərbaycanlı əhalı yaşamışdır.

35 il əvvəl - Birinci Qarabağ müharibəsinin başlanğıcında - 1988-ci il sentyabrın 18-dən 21-dək ermənilər tərəfindən Xankəndi şəhərində tarixən yaşamış azərbaycanlıların mənzillərinə basqınlar edilmiş, minlərlə ailənin evi yandırılmış və ya dağıdılmışdır. Zorakı deportasiya nəticəsində, şəhəri tərk etməyə məcbur edilmiş təxminən 16 mindən artıq (əslində 23 minə qədər) azərbaycanlı əhalinin xeyli hissəsi Şuşada, Ağdamda və digər şəhərlərdə məskunlaşmağa məcbur olmuşdur.

1991-ci il dekabrın 28-də Ermənistan silahlı dəstələrinin ağır texnika ilə Xankəndi şəhərinin Kərkicahan qəsəbəsinə hücumu nəticəsində 34 nəfər həlak olmuş, 4 nəfər itkin düşmüş, 150 nəfərdən artıq dinc sakin yaralanmışdır. Nəticədə, strateji əhəmiyyətli Kərkicahan qəsəbəsinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi ilə Xankəndi şəhəri bütünlüklə zəbt olunmuşdu. Şəhid olanlardan 3 nəfər qadın, 2 nəfər isə azyaşlı uşaq olmuşdur. Hazırda rəqəmləri dəqiqləşdirməyə daha çox ehtiyac vardır!

XX əsrin sonunda ermənilərin Azərbaycana qarşı əsassız ərazi iddiaları başlayanda onların uydurduqlarının əksinə olaraq milli-mədəni hüquqları hər zaman qorunmuşdur. Yəni sovet dövründə vilayətin əhalisi başdan-başa savadlı idi, 193 ümumtəhsil məktəbi, o cümlədən 147 erməni məktəbi fəaliyyət göstərirdi. Xankəndi Pedaqoji İnstitutunda dərslər azərbaycan, rus və erməni dillərində keçirilirdi. Vilayətdəki 5 texnikumdan və 5 texniki-peşə təhsili məktəbindən 4-də dərslər erməni dilində aparılırdı. Burada kitab fondu 1,5 mln. olan 196 kütləvi kitabxana, 202 klub, mədəniyyət evi, 195 kinoteatr və kinoqurğusu, M.Qorki adına Xankəndi şəhər dram teatrı, mahnı və rəqs ansamblı, erməni dilində nəşr onnan "Sovet Qarabağı" qəzeti (rus dilində nəşr olunan "Sovetskiy Karabax"), 5 rayon qəzeti (4-ü erməni dilində, 1-i Azərbaycan dilində) var idi. Vilayətdə 2,5 saat yayımlanan radio verilişlərindən 2 saatdan çoxu erməni dilində idi.

Xankəndi sovet dövründə, yəni XX əsrin 80-cı illərinin sonuna kimi Azərbaycanın inkişaf etmiş sənaye kompleksinə, nəqliyyata, təkmilləşdirilmiş infrastruktura malik şəhərlərindən idi. Xankəndidəki pedaqoji institutla yanaşı, müəllimləri təkmilləşdirmə institutu, tarix-diyarşünaslıq muzeyi, konsert zalları, Azərbaycan Yazıçılar İttifaqının Qarabağ fılialı, mədəniyyət sarayı, idman meydançası, istirahət parkı, istirahət evi, mahnı və rəqs ansamblı, satış, ictimai-iaşə müəssisələri və digər mədəni-məişət obyektləri fəaliyyət göstərmişdir.

Sovet hakimiyyəti illərində Xankəndidə yeni sənaye mərkəzləri yaradıldı. Burada həm yüngül sənaye, həm də yeyinti sənayesi inkişaf edirdi. Xankəndi sənaye müəssisələri bölgənin ümumi sənaye məhsullarının 60 faizini verirdi. Qarabağ İpək Kombinatı, Xankəndi Ayaqqabı Fabriki, tikiş fabriki, xalça emalatxanası, şərab zavodları, süd və ət kombinatları, kirəmid, kərpic, əhəng zavodları, taxta-şalban, inşaat materialları, kəsici alətlər zavodları, yağ zavodu, elektrik avadanlıqları istehsalı zavodu, avtomobil təmiri və asfalt-beton zavodları, sənaye, istehsalat və tədris istehsalat kombinatları, elektrik şəbəkəsi və digər obyektlər Xankəndidə yaradılmış sənaye sahələri idi.

Xankəndidə yuxarıda adıçəkilən sənaye müəssisələrinin xammal mənbələri Qarabağ ərazisindəki tükənməz xammal ehtiyatları hesabına ödənilirdi. Belə ki, Xankəndi ipək istehsalına görə Azərbaycanda ikinci mərkəz hesab olunurdu. Respublikada ipəkçilik sənayesi məhsullarının təxminən 25 faizi Xankəndinin payma düşürdü. Eyni zamanda sovet dövründə respublikada istehsal olunan ayaqqabının beşdəbiri Xankəndi Ayaqqabı Fabrikində istehsal olunurdu. Xankəndi Süd Kombinatında respublikamızda quru süd zərdabı hazırlayan yeganə sex işləyirdi.

## İkinci Qarabağ müharibəsi: Azərbaycanın ərazi bütövlüyünün bərpası, suverenliyinin bərqərar olması

Azərbaycan Prezidenti İlham Əliyev mühüm beynəlxalq tədbirlərdə dəfələrlə Ermənistanın işğalçılıq siyasətini ifşa edərək təcavüzkarın faşist ideologiyası yürütdüyünü və terrorizmi dövlət səviyyəsində dəstəklədiyini bütün dünyaya bəyan etmiş, xüsusilə son 20 ildə Azərbaycan diplomatiyasının səyləri nəticəsində münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və s. beynəlxalq təşkilatların sənədləri problemlərin həllinə müvafiq hüquqi baza yaratdı.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan Azərbaycan torpaqlarını azad etmək üçün Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başlatdığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Azərbaycan Vətən müharibəsinin 44 günü ərzində beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini azad etmək hüququndan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Nəticədə, Azərbaycan dövləti 2020-ci il oktyabrın 4-də Cəbrayıl şəhərinin, 17-də Füzuli şəhərinin, 20-də Zəngilan şəhərinin, 25-də Qubadlı şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnaməni özü icra etdi.

2020-ci il noyabrın 8-i isə Azərbaycan tarixinə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə, eləcə də taleyinə ciddi təsir göstərdi və hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarını şərtləndirdi.

Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi nəticəsində noyabrın 20-də Ağdamın və 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini müəyyənləşdirdi. Bununla yanaşı, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarından çıxmasını nəzərdə tutan 822 və 853 saylı qətnamələr də məhz Azərbaycanın şərtləri ilə icra edildi. Bunun davamı olaraq üçtərəfli Bəyanatın müvafiq maddəsinə əsasən, Ermənistan silahlı qüvvələrinin 2020-ci il dekabrın 1-dən Laçın rayonundan çıxması Azərbaycanın hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirilir.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, 30 ildən artıq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirilməklə yanaşı, düşmənin bu illər ərzində yaratdığı "yenilməzlik" mifologiyasını da tamamilə dağıtdı. Bununla yanaşı, Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələri Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün, 30 ildən artıq yürütdüyü işğalçılıq siyasətinin, xüsusilə müharibə cinayətlərinin mahiyyətini açmaqla bunun bütün region üçün yaratdığı ciddi təhdidləri, davam edən hərbi əməliyyatlarla bağlı tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanaraq tutarlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, ölkəmizin haqlı mövqeyinin konkret faktlarla dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Həmçinin bu müsahibələr informasiya məkanında da düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndi.

Azərbaycan Prezidenti İlham Əliyev 2021-ci il fevralın 26-da mətbuat konfransında Dağlıq Qarabağın statusu məsələsinə də nöqtə qoyaraq bildirdi ki, Ermənistana və erməni xalqına yanlış vədlər vermək lazım deyil, onları bu günə salan səbəblərdən biri də məhz o idi, xülya idi, iddia idi, əsassız istəklər idi. Bu istəklərə rəvac verən bəzi xarici ölkələrin siyasətçiləri də erməni xalqının bu rəzil duruma salınmasında öz rolunu oynadılar: "Status haradadır, onu hər kəs bilir. Hesab edirəm ki, Ermənistan və erməni xalqı üçün bu məsələ nə qədər az dilə gətirilərsə, o qədər də yaxşı olar. Ona görə status məsələsi, ümumiyyətlə, gündəlikdən çıxmalıdır. Ona görə statusla bağlı hesab edirəm ki, əgər kimsə bu gün bu məsələni qaldırırsa, sülhə yox, qarşıdurmaya daha çox xidmət göstərir". Hər zaman, xüsusilə, Münhen Təhlükəsizlik Konfransında bəyan etdiyi kimi, Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu diqqətə çatdıran dövlət başçısı vurğuladı ki, faktiki olaraq biz bu gün, ümumiyyətlə, Dağlıq Qarabağ ifadəsini də işlətməməliyik və Qarabağ aranlı-dağlı Azərbaycanın ayrılmaz hissəsidir.

2023-cü il sentyabrın 19-20-də Azərbaycan apardığı lokal xarakterli antiterror tədbirləri nəticəsində həm ərazi bütövlüyünü, həm də suverenliyini bərpa edərək Cənubi Qafqaz regionunda sülhün bərqərar olması üçün əsaslı zəmin yaratdı. 2023-cü il oktyabrın 15-i daha bir şərəfli gün kimi tarixə düşdü. Ali Baş Komandan, Prezident İlham Əliyev Ağdərədə, Xocalıda, Əsgəranda, Xocavənddə və Xankəndidə Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı.

Nəticədə, İkinci Qarabağ müharibəsi son yuz ildə şərəf və qəhrəmanlıq salnaməsi kimi Azərbaycan tarixinə yazıldı. Bu gün üçrəngli müqəddəs bayrağımız Azərbaycanın bütün işğaldan azad edilmiş ərazilərində - Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Laçında, Ağdamda, Şuşada, Xocavənddə, Hadrutda, Ağdərədə, Xocalıda və Xankəndidə qürurla dalğalanır.

*Qeyd etmək lazımdır ki, Azərbaycan dövləti İkinci Qarabağ müharibəsindən sonra əzəli torpaqlarını işğaldan azad etməklə yanaşı, 100 il əvvəl - 1923-cü ildə Qarabağda məqsədli şəkildə pozulmuş inzibati-ərazi bölgüsünü də yenidən bərpa etdi. Azərbaycan Prezidentinin 2021-ci il iyulun 7-də imzaladığı fərmanına əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması isə tarixi ədaləti bərpa etdi.*

**Elçin ƏHMƏDOV,**
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Qarabağ İrsini Araşdırma Mərkəzi"nin rəhbəri, professor, siyasi elmlər doktoru***




# Beynəlxalq enerji tərəfdaşlığı platforması

## "Qaradağ" stansiyasının istifadəyə verilməsi "yaşıl enerji" hədəflərimizə doğru inamlı addımdır

**Azərbaycanın yaratdığı beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması getdikcə daha da möhkəmlənir. Həm də yeni-yeni sahələri əhatə edir. Son illər bərpaolunan enerji sahəsinin inkişafı istiqamətində atılan addımlar buna əyani misaldır.**

Budur, Prezident İlham Əliyev ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş-elektrik stansiyasının - "Qaradağ" Günəş-Elektrik Stansiyasının açılışını da etdi.

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Masdar" şirkəti ilə tikilən 230 MVt gücündə bu stansiyanın yaranma tarixi çox qısadır. Belə ki, Azərbaycanın Energetika Nazirliyi, "Azərenerji" ASC və BƏƏ-nin "Masdar" şirkəti arasında investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşulma ilə bağlı müqavilələrin imzalanmasından cəmi iki il yarım vaxt keçir. Stansiyanın təməli isə il yarım əvvəl qoyulub. Əgər "Qaradağ"ın Xəzər regionunda və MDB məkanında ən böyük günəş-elektrik stansiyası olduğunu qeyd etsək, Azərbaycanın öz qarşısına qoyduğu hədəflərə həmişə beləcə uğurla çatdığını bir daha vurğulamış olarıq.

Hədəflərimiz isə böyükdür. Elə bərpaolunan enerji sahəsində də. Məlum olduğu kimi, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də ölkəmizdə "yaşıl enerji" istehsalının genişləndirilməsi məsələsi də əhəmiyyətli yer alıb. Hədəf ümumi enerji istehsalı gücündə bərpaolunan enerjinin payını indiki 17,3 faizdən 2025-ci ildə 24, 2030-cu ildə isə 30 faizə çatdırmaqdır. Bu məqsədə doğru atılan inamlı və uğurlu addımlardan biri də məhz "Qaradağ"ın tikintisinin başa çatdırılıb istifadəyə verilməsidir.

Qeyd edək ki, stansiya 262 milyon dollar dəyərində xarici sərmayə hesabına tikilib. Burada ildə yarım milyard kilovat-saat elektrik enerjisi istehsal ediləcək. 110 milyon kubmetr həcmində təbii qaza qənaət olunacaq. Eyni zamanda atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyasında 570 min günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib. Stansiya günəşdən aldığı enerji ilə 110 mindən çox evi işıqlandıracaq.

Prezidentimizin dediyi kimi: "Bu, böyük bir yolun, iki qardaş ölkənin böyük yolunun başlanğıcıdır. Bu gün biz nisbətən qısa zamanda - təxminən ilyarımdan bir qədər çox müddət ərzində Abşeron yarımadasının bu boş hissəsinin "yaşıl enerji" mənbəyinə çevrildiyini görəndə çox qürur duyuruq. Bu, əlamətdar nailiyyətdir. Mən Azərbaycanın inkişafına verdiyi bu möhtəşəm töhfəyə, həmçinin "yaşıl enerji"yə keçidlə bağlı ölkəmizə sadiqliyinə görə "Masdar"ı, onun rəhbərliyini təbrik etmək istərdim. Bu gün qonaqlarımız arasında Birləşmiş Ərəb Əmirlikləri hökumətinin dörd nazirini, həmçinin qardaş ölkədən böyük nümayəndə heyətini görməkdən qürur duyuruq. Bu, tərəfdaşlığımızın və dostluğumuzun yaxşı nümunəsidir, eləcə də hər iki ölkənin bugünkü mərasimə böyük əhəmiyyət verdiyini nümayiş etdirir".

Hazırda ölkəmizdə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti ilə təməli 2022-ci il yanvarın 13-də qoyulmuş "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının inşası da davam edir. Lakin bərpaolunan enerji gündəliyimiz bununla məhdudlaşmır. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizi



"yaşıl enerji" zonası ?lan edib və bunu həqiqətə çevirmək üçün hazırda mühüm əməli addımlar atılır. Məsələn, Cəbrayıl rayonunda bp şirkəti ilə yeni böyük günəş-elektrik stansiyasının tikintisinə hazırlıq görülür. Lakin məsələ təkcə günəş və ya külək-elektrik stansiyaları ilə də bitmir. Dövlətimizin başçısı bu barədə məlumat verərək deyib: "Biz üç il bundan əvvəl işğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun ərazilərində hidroenerji potensialımızı fəal şəkildə inkişaf etdiririk. Biz artıq 170 meqavat gücündə olan hidroelektrik stansiyalarını istismara vermişik və bu ilin sonuna kimi bu, 270 meqavata çatacaq. İki-üç ildən sonra hidroelektrik stansiyaların gücü 500 meqavat olacaq. Bu da "yaşıl enerji"yə keçid prosesinə digər mühüm bir töhfə olacaqdır. Ümumiyyətlə, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan artıq "yaşıl enerji" zonası kimi elan olunub. Bizim təbii sərvətlərimizin istifadəsi üçün böyük potensial var və aydındır ki, külək də artıq bu sərvətə çevrilib. Çünki külək həmişə, xüsusilə də təyyarə ilə enəndə bəzən müəyyən problemlərin mənbəyi olub. Lakin indi külək təbii sərvətdir. Bunu ola bilsin, 10-20 il bundan əvvəl təsəvvürə gətirmək çətin olardı. Lakin indi bu belədir və xüsusilə Xəzər dənizində külək çox güclüdür, hətta bu gün buradakı külək onu göstərir ki, bu potensial buradadır".

Azərbaycanın təbii sərvətləri bu gün beynəlxalq bazarlara neft, təbii qaz, neft məhsulları, neft-kimya məhsulları, elektrik enerjisi ixrac etməyə imkan verir. Gələcək planlar göstərir ki, yaxın illərdə ölkəmiz hidrogen, o cümlədən "yaşıl hidrogen" də ixrac edəcək.

Məlum olduğu kimi, keçən il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Təbii ki, hər hansı bir ixrac layihəsinin həyata keçirilməsi öncədən genişmiqyaslı işlərin görülməsini, infrastrukturun yaradılmasını tələb edir. Elektrik enerjisinin ötürülməsinin də özünəməxsus çətinlikləri və spesifik cəhətləri var. Məsələn, bərpaolunan enerjinin inteqrasiya edilməsi üçün münasib interkonnektorlara ehtiyac yaranır. Buna görə Rumıniya, Gürcüstan və Azərbaycan arasında Qara dənizdən çəkiləcək elektrik xətti olduqca vacibdir. Bərpaolunan enerji mənbələrindən elektrik enerjisini Rumıniya və Macarıstan ərazisindən Avropa İttifaqına gətirməklə bu layihə təchizatın təhlükəsizliyini gücləndirməyə kömək edəcək.

Bu məqsədlə tərəfdaşlarımızla, dünyanın müxtəlif ölkələrindən olan şirkətlərlə birgə iş aparılır. "Masdar"la tərəfdaşlıq isə gələcək uzun yolların başlanğıcında atılan uğurlu addımdır və onların sayı artmaqdadır.

Xatırladaq ki, hələ bu il yanvarın 15-də Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri çərçivəsində Əbu-Dabi şəhərində SOCAR-la (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) "Masdar" arasında ölkəmizdə 2 QVt gücündə Dənizdə Külək və Hidrogen layihələrinin işlənməsinə dair Birgə İşlənmə Sazişi, həmçinin 1 QVt gücündə Günəş Fotovoltaik və 1 QVt gücündə Quruda Külək Layihələrinin işlənməsinə dair Birgə İşlənmə Sazişi imzalanmışdır.

Bu günlərdə, "Qaradağ" stansiyasının açılışından sonra isə "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company - "Masdar" şirkəti arasında Neftçala rayonunun Bankə qəsəbəsində və Biləsuvar rayonunda günəş-elektrik stansiyaları, Abşeron-Qaradağ rayonunda quruda külək enerjisi layihəsi ilə bağlı investisiya müqavilələri imzalanması baş tutdu.

Azərbaycandakı layihələrə Birləşmiş Ərəb Əmirlikləri də böyük önəm verir. BƏƏ-nin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir "Qaradağ" stansiyasının açılışındakı çıxışında bunu belə ifadə edib: "Bu tədbir Azərbaycanın enerji şaxələndirilməsi və davamlı iqtisadi inkişafına aparan yolda mühüm bir tədbirdir… "Masdar"ın heç bir layihəsini görməmişəm ki, dörd nazir və Birləşmiş Ərəb Əmirliklərinin ən yüksəksəviyyəli nümayəndə heyətinin üzvləri eyni vaxtda iştirak etsinlər. Bu, həqiqətən də böyük bir ehtiramın, hörmətin və Sizin ölkənizlə əməkdaşlığımızın nümunəsidir. Cənab Prezident, mən Sizin çox nəcib, xoş sözlərinizi çox yaxşı xatırlayıram. Elə bu ilin əvvəlində Əbu-Dabidə Dayanıqlılıq Həftəsində çıxışınızı yaxşı xatırlayıram. Siz dediniz ki, Azərbaycanın bərpaolunan enerji mənbələrini uzun illər bundan əvvəl inkişaf etdirmək qərarı təkcə enerji təhlükəsizliyi ilə bağlı deyildi. Bu, cəsarətli və düşünülmüş qərar idi, hətta mən deyərdim, strateji bir addım idi. Bu, yeni sənaye sahələrini inkişaf etdirmək, yeni iş yerləri yaratmaq, "yaşıl iqtisadi artım" üçün strateji addım idi. Zati-aliləri, bu yanaşma Birləşmiş Ərəb Əmirliklərinin də yanaşmasının güzgüdəki əksinə bənzəyir. Əslində bu, Birləşmiş Ərəb Əmirliklərinin ötən iyirmi il ərzində qəbul etdiyi bir yanaşmadır. Bu gün Birləşmiş Ərəb Əmirlikləri böyük fəxarət hissi ilə "Masdar" kimi mütərəqqi enerji şirkətinin timsalında bunu sərgiləmiş olur. Bildiyiniz kimi, "Masdar" dünyanın aparıcı, məhz bərpaolunan enerji şirkətinə çevrilmişdir. Bu layihə ölkələrimiz arasında yaxın münasibətlərin inkişafında və möhkəmlənməsində mühüm mərhələdir".

*Flora SADIQLI, "Azərbaycan"*

# *İranlı nazir:* "Araz çayı üzərində tikiləcək yeni körpü Azərbaycan ilə İran arasında ticarət dövriyyəsinin artmasına böyük töhfə verəcək"

Araz çayı üzərində tikiləcək yeni körpü strateji xarakter daşıyır və Azərbaycan ilə İran arasında iqtisadi əlaqələrin və ticarət dövriyyəsinin artmasına böyük töhfə verəcək.



AZƏRTAC xəbər verir ki, bu sözləri İranın yollar və şəhərsalma naziri Mehrdad Bəzrpaş deyib. Nazir jurnalistlərin suallarını cavablandırarkən bildirib ki, Ağbənd körpüsü İran ilə Azərbaycanı yalnız avtomobil yolu ilə deyil, həmçinin dəmir yolu ilə birləşdirəcək. Dəmir yolu Ağbənddən İran ərazisinə keçərək Naxçıvanın Culfa şəhərinə kimi uzanacaq. Yolun tikintisi 1 il davam edəcək. Nazir bildirib ki, Azərbaycan ilə razılaşmaya əsasən burada gömrük-keçid məntəqəsi və terminal da inşa ediləcək. Yeni körpü tranzit yükdaşımaların inkişafına da geniş imkanlar yaradacaq.

Qeyd edək ki, Ağbənd qəsəbəsi yaxınlığında Araz çayı üzərində salınacaq dəmir yolu körpüsü Horadiz-Ağbənd dəmir yolunun davamıdır.

2021-ci ilin fevral ayında ölkə Prezidenti İlham Əliyev tərəfindən təməli qoyulan Horadiz-Ağbənd dəmir yolu xəttinin ox üzrə uzunluğu 110,4 kilometrdir. Tikinti işləri üç mərhələdə həyata keçirilir. Birinci mərhələ Horadiz, Mərcanlı, Mahmudlu stansiyalarını əhatə etməklə 30 kilometr, ikinci mərhələ Soltanlı, Qumlaq, Həkəri və Mincivan stansiyalarını əhatə etməklə 55 kilometr, üçüncü mərhələ isə Mincivandan başlayaraq Bartaz və Ağbənd stansiyalarını əhatə etməklə 25,4 kilometr təşkil edir.

Layihə çərçivəsində 9 stansiyanın (Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd), 3 ədəd tunel, 41 ədəd körpü, 3 ədəd qalereya, 7 ədəd yolötürücü və ümumilikdə isə 300-ə yaxın süni mühəndisi qurğunun tikintisi planlaşdırılır. Layihə üzrə tikinti-quraşdırma işlərinin cari ildə yekunlaşdırılması nəzərdə tutulub.

# 300 milyardlıq xarici investisiya

## Bu, ölkəmizin iqtisadi yüksəlişinin yalnız bir göstəricisidir

Prezident İlham Əliyev Qaradağ Günəş-Elektrik Stansiyasının rəsmi açılış mərasimində çıxışı zamanı bildirib ki, son 30 il ərzində Azərbaycana ümumi investisiyalar 300 milyard ABŞ dollarından çox olub.



Dövlət başçısı, həmçinin deyib ki, bunun təqribən 200 milyard ABŞ dolları qeyri-neft sektorunun payına düşür. Bu, ölkəmizin xarici investisiyalar üçün çox açıq olduğunu göstərir. Həmçinin bir daha aydın olur ki, Azərbaycan iqtisadiyyatı həyata keçirilən uğurlu siyasət nəticəsində dinamik inkişaf edir.

Mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Rüfət Quliyev bildirib ki, bu rəqəm Azərbaycanın son 30 ildə iqtisadi inkişafını xarakterizə edən göstəricilərdən biridir. İnvestisiyaların həcminin yüksək olması Azərbaycana qlobal aləmdə göstərilən böyük inamla bağlıdır. Ölkəmizdə iqtisadi artım, siyasi stabillik bu artımın əsas səbəblərindəndir.

Deputatın fikrincə, onu da nəzərə almaq lazımdır ki, son 30 ildə ölkəmizə cəlb edilən investisiyaların 67 faizə yaxınının qeyri-neft sektorunun payına düşməsi də mühüm əhəmiyyət kəsb edir. Bu, ondan xəbər verir ki, Azərbaycan xarici investorlar üçün cəlbedici ölkədir. Sərmayələrin neftlə yanaşı, qeyri-neft sektoruna da cəlb edilməsi isə təbii ki, digər xarici və yerli investorların bu sahəyə investisiya yatırmasına imkan yaradıb.

"Qarabağ və Şərqi Zəngəzur da son 3 ildə investorların diqqətini çəkir. Belə ki, orada müxtəlif sahələrə məxsus müəssisələrin inşası bir çox xarici şirkətin marağındadır", - deyən deputat onu da söyləyib ki, Azərbaycanda investisiya mühitinin yaxşılaşması ümumiyyətlə, iqtisadiyyatımızın inkişafına müsbət təsir göstərir. İnvestisiya mühiti yaxşılaşdıqca, qeyri-neft sektoruna cəlb edilən vəsaitlərin də həcmi artır: "Azərbaycan enerji ölkəsi statusunu qoruyub saxlamaqla yanaşı, neft sektorundan əldə edilən gəlirlərin böyük qismini qeyri-neft sektorunun inkişafına yönəldir. Yəni ölkəmizdə qeyri-neft sektorunun daim inkişafda olması öz növbəsində maliyyə yatırımını sürətləndirir. Ölkəmizə investisiya yatırımı ilə qeyri-neft sektorunun inkişafı paralel şəkildə gedir, həm də bir-birindən asılıdır".

Rüfət Quliyev əlavə edib ki, ölkəmizə 300 milyard dollarlıq investisiyanın yatırılması birmənalı şəkildə Azərbaycan iqtisadiyyatının potensialını və növbəti illərdə inkişaf perspektivini göstərən əsas faktordur.

*Nəzrin QAFARZADƏ, "Azərbaycan"*

# Qafqazın ən böyük günəş-elektrik stansiyası

## Xarici investisiya cəlb edilməklə reallaşdırılan sənayemiqyaslı ilk müəssisədə ildə 500 milyon kilovat-saat elektrik enerjisi istehsal ediləcək

Oktyabrın 26-da açılışı olan Qaradağ Günəş-Elektrik Stansiyası əhəmiyyətinə görə xüsusi diqqət çəkir. Azərbaycanın Energetika Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşulma ilə bağlı müqavilələrə əsasən, 2022-ci ilin mart ayında əsası qoyulan stansiya artıq istifadəyə verildi.



Bu, ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənayemiqyaslı ilk günəş-elektrik stansiyasıdır. 230 MVt gücündə olan stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. 550 hektar ərazini əhatə edən elektrik stansiyasında 570 min günəş paneli quraşdırılıb.

Ümumiyyətlə, Azərbaycan son illər "yaşıl enerji" sahəsində də böyük layihələrin təşəbbüskarı kimi çıxış edir. Alternativ enerji potensialına malik ölkəmizdə günəş, külək, hidroelektrik stansiyaları mövcuddur. Bunun nəticəsidir ki, "yaşıl enerji" zonasına çevrilən ərazilərimizin sahəsi getdikcə genişlənir.

Azərbaycanın bərpaolunan enerji sahəsindəki potensialı xarici şirkətləri, investorları ölkəmizə cəlb edir. Mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan iqtisadçı ekspert Eldəniz Əmirov qeyd edib ki, Qaradağ Günəş-Elektrik Stansiyası Azərbaycanın alternativ enerji mənbələrinə fokuslanmış siyasətinin reallaşması istiqamətində atılmış addımlardan biridir. Perspektivdə daha böyük layihələrin icrasının və stansiyaların açılmasının şahidi olacağıq: "Bunun üçün ölkədə ciddi potensial var. Ölkəmizdə dünyada olan alternativ enerji mənbələrinin əsas 7 növündən 6-sı mövcuddur. Bu baxımdan, imkanlarımız çox genişdir. Qaradağ Günəş-Elektrik Stansiyasının isə ölkə iqtisadiyyatına qatqısı iqtisadi dividenddən daha çox bu sektoru tətikləyəcək lokomativ effektə malik olmasıdır".

E.Əmirov qeyd edib ki, istər Xızıdakı külək, istər Qaradağdakı günəş, istərsə də Cəbrayılda bp-nin icra etdiyi digər günəş-elektrik stansiyası xarici investorların ölkəmizdə alternativ enerji resurslarına yönəlik başlanğıc investisiyalarıdır. Bu, digər investorların da ölkəyə cəlb olunmasına və "yaşıl iqtisadiyyat"ın gələcəkdə sürətli inkişafına təkan verəcək. Buxarestdə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanla birlikdə Qara dənizin dibi ilə elektrik kabel xəttinin çəkilməsi ilə bağlı razılıq əldə edilərkən məhz Azərbaycanın alternativ enerji mənbələri hesabına istehsal olunacaq elektrik enerjisinin Avropaya ixracı nəzərdə tutulub. Bu məsələdə Gürcüstan da maraqlıdır, çünki qonşu ölkədə də alternativ enerji potensialı yüksəkdir. Azərbaycan bu layihənin təşəbbüskarı kimi çıxış edib və ölkəmizin Avropaya yönəlik əksər layihələrindən Gürcüstan yararlanıb. Bu həm Avropaya, həm Gürcüstana, Rumıniyaya, Macarıstana, həm də digər Şərqi Avropa ölkələrinə yaxşı perspektivlər vəd edir.

İqtisadçı bildirib ki, Azərbaycanın 200 qiqavatdan artıq alternativ enerji potensialı var ki, gələcəkdə bu enerjidən istifadənin reallaşdırılması imkanları çox genişdir. "İxracın stimullaşdırılması, həmçinin digər beynəlxalq investorların ölkəmizə cəlb olunması istiqamətində işlər gedir. İstehsal olunacaq enerjinin ixraca yönəldilməsi, eyni zamanda Zəngəzur dəhzilinin açılması istiqamətində proseslər davam edir. Bütün bunlar ixrac üçün çox önəmli məsələlərdir", - deyə o əlavə edib.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Murdar xislət

## Ermənistanın mina terroru bəşəri cinayətdir

"Ermənilər işğal dövründə, eyni zamanda müharibədən sonra şəhər və kəndlərimizi tərk edən vaxt bütün ərazilərimizi minalayıblar. Onların bu hərəkətləri müharibə qanunauyğunluqlarına, beynəlxalq hüququn norma və prinsiplərinə ziddir, ümumiyyətlə isə insanlığa yaraşmır. Lakin ermənilər öz xislətlərinə uyğun davranaraq, mülki insanlara və təbiətə ziyan verməkdən çəkinmirlər. Buna görədir ki, müharibənin başa çatmasından 3 il keçməsinə baxmayaraq, hələ də mina xəritələrini Azərbaycana təhvil vermirlər".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elman Məmmədov deyib. Deputat bildirib ki, ermənilər ərazilərimizi minalamaqla həm də bütün təbiəti korlayıb, hər şeyi məhv ediblər. Şəhər və kəndlərimizdə daşı daş üstə saxlamayan Ermənistan, görünür, 30 il boyunca yalnız mina basdırmaqla məşğul olub. Bu, vandal ermənilərin murdar xislətlərindən və bəşəriyyətə qarşı cinayətkar münasibətlərindən xəbər verir.

Deputat deyib ki, Azərbaycan hələ təkcə müharibədən sonra yüzlərlə mina qurbanı verdiyinə görə ermənilərdən çox, onları müdafiə edən, hayları mədəni, məzlum millət kimi qələmə verən ermənipərəst beynəlxalq qurumlar və Fransa kimi dövlətlər xəcalət çəkməlidirlər: "Bütün dünya başa düşməlidir ki, ermənilər yazıq və məzlum cildinə girmiş vəhşi cinayətkarlardır. Təqdim etdikləri mina xəritələrinin cəmi 25 faizinin doğru olması onların məqsədini ortaya qoyur. Tez-tez xəbər tuturuq ki, ərazilərimizdə minalar, raketlər, silah-sursatlar aşkarlanır. Həm də onların bir qisminin istehsalı müharibədən sonrakı illərə aiddir. Bu nə deməkdir?! 44 günlük müharibə başa çatdıqdan sonra separatçılar hansı yollarla və vasitələrlə, kimlərin köməyi ilə ərazilərimizi minalamağa başlayıblar?! İndi görün, nə qədər insan ermənilərin mina terrorunun qurbanına çevrilib. Hələ bu azmış kimi, minalanmış ərazilərdə neçə-neçə heyvanlar da məhv olur. Görəsən, Ermənistan təbiətə nə qədər zərər vurduğunun fərqindədir?!"

Elman Məmmədov təhlükəsizliyin qorunmasından ötrü ermənilərin bu məsələ ilə bağlı davamlı ittiham edilməsinin vacibliyini vurğulayıb. Onun sözlərinə görə, Böyük Qayıdış proqramı çərçivəsində işğaldan azad olunmuş ərazilərimizə köç sürətlənir və hər ay daha çox sakin yurduna qayıdır. Minalardan təmizlənmə işləri nə qədər sürətli və keyfiyyətli aparılsa da, bu, uzun vaxt tələb edən işdir. Ona görə də oraya köçən soydaşlarımızın sayı çoxaldıqca risk də artır.

Deputat həmçinin vurğulayıb ki, Ermənistana hamilik edənlər elə onların özü qədər günahkardırlar: "Ermənilərin min cür cinayətini müdafiə edən dövlətlərə sual olunur ki, əgər ermənilər, doğrudan da yaxşı millətdirlərsə, onları niyə öz ərazinizdə yerləşdirmirsiniz?! Yaxşı bilirlər ki, əgər onlara qucaq açsalar, çox keçməz, elə öz başına oyun açacaqlar".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Fransa müharibə təhlükəsi yaradan mərkəzə çevrilib

## Rəsmi Parisin yürütdüyü siyasət ilk növbədə onun siyasi nüfuzunu məhv edir

"Fransa Ermənistanı dəstəkləməsi ilə həm beynəlxalq hüququ pozur, həm də bütün mənəvi sərhədləri keçir. Bu gün rəsmi Paris Ermənistanın işğalçılıq siyasətinə aktiv şəkildə dəstək verir, onu silahlandırmaqla regionda yeni gərginlik ocağı yaradır".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib.

Deputat bildirib ki, Fransa Azərbaycana qarşı böhtan kampaniyasına rəhbərlik edir və prinsip etibarilə BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri olaraq beynəlxalq aləmdə sülhə xidmət etmək əvəzinə, müharibə təhlükəsi yaradan mərkəzə çevrilib.

Bu ölkənin məqsədi fransız seçicilərin diqqətini prezident Emmanuel Makronun iflasa uğrayan xarici və daxili siyasətindən yayındırmaqdır: "Fransa Afrika ölkələrindən qovulur, beynəlxalq aləmdə hər hansı məsələnin həll olunmasında arzuolunan vasitəçi kimi qəbul edilmir. Ölkə daxilində xaos mövcuddur. Sosial problemlər günbəgün artır. Fransız seçicisi hökumətin fəaliyyətindən ciddi narazıdır və tətillər bütün ölkəni bürüyüb. Bunun qarşısını ala bilməyən Fransa hökuməti başqa məsələlərə əl atıb. Bununla belə, Fransanın kor erməni sevgisi onu çox çıxılmaz vəziyyətə gətirib çıxarır".

Onun sözlərinə görə, Fransa Ermənistanı silahlandırmaqla, ona siyasi dəstək verməklə Azərbaycanı və türk dünyasını susduracağını düşünürsə, böyük səhv edir. Parisin bu siyasəti ilk növbədə özünə ziyan vurur. Fransız şirkətləri işğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı dəyəri 100 milyard dollar olan layihələrdən kənarda qalıblar. Bu kampaniyalar digər türk dövlətlərindən də sifariş ala bilmirlər. Fransanın siyasi nüfuzu bu regionda kifayət qədər aşağı düşüb.

Ermənistanın Fransadan istifadə etdiyini vurğulayan A.Mirzəzadə bildirib ki, müəyyən dövrdən sonra bu ölkə Rusiya əleyhinə addımlar atdığı kimi, daxilində anti-Fransa etirazları da baş qaldıracaq. Bu zaman Ermənistan başqa "dayı"ya sığınmağa çalışacaq.

Deputat qeyd edib ki, Fransa hökumətinin indiki siyasətinə görə gələcək fransız nəsillər çox böyük problemlərlə üzləşəcəklər. Bu addımlarına görə ölkənin hansı vəziyyətə düşdüyünün fərqinə varacaqlar.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Ermənistanın mina terrorunun dəhşətləri

## Son 3 ildə Azərbaycanda 65 nəfər həlak olub, 269 nəfər ağır yaralanıb

Dünyada 60 milyon insan mina təhlükəsi altındadır. Laos Xalq Demokratik Respublikası, Anqola, Azərbaycan, Kamboca, Konqo Demokratik Respublikası, Vyetnam dünyanın mina ilə ən çox çirklənmiş ölkələri sırasındadırlar. Torpaqlarımızda basdırılan minaların sayını insanlarla müqayisə etsək, hər 10 nəfərə bir mina düşdüyünü görərik.




Mina terroru ilə bağlı Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" sosial platformasındakı paylaşımında bildirib ki, Azərbaycanda 10 noyabr 2020-ci ildən 26 oktyabr 2023-cü ilədək 50 mülki şəxs mina partlayışı nəticəsində həlak olub, 105 mülki şəxs isə yaralanıb. Həmçinin bu dövr ərzində 15 hərbçi mina partlaması nəticəsində şəhid olub, 164 şəxs isə xəsarət alıb.

Prezidentin köməkçisi vurğulayıb ki, ümumilikdə götürdükdə qeyd edilən dövr ərzində 65 nəfər mina partlaması nəticəsində həlak olub, 269 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb. 1991-ci ildən indiyə qədər Azərbaycanda 3413 nəfər mina qurbanı olub. Onlardan 357 nəfəri uşaq və yeniyetmə, 38 nəfəri isə qadındır.

### Mina terrorunun daha bir qurbanı

İşğaldan azad edilmiş ərazilərimizdə mütəmadi olaraq soydaşlarımızın mina qurbanına çevrilməsi xəbərləri Ermənistanın mina terrorunun davam etdiyini göstərən faktlardır. Hələ bir neçə gün öncə, oktyabrın 26-sı səhər saatlarında Tərtər rayonunun Talış kəndi ərazisində 1970-ci il təvəllüdlü Elçin Vəliyev minaya düşərək müxtəlif dərəcəli xəsarətlər alıb. Hadisə nəticəsində əkinçilik təsərrüfatında çalışan traktorçunun bir qolu amputasiya edilib.

Qarabağ bölgəsində əraziyə baxış zamanı kustar üsullarla əldəqayırma partlayıcı vasitələrin hazırlandığı emalatxana aşkar olunub. Müdafiə Nazirliyindən verilən məlumata görə, emalatxananın içərisində xeyli sayda dron vasitəsilə daşına bilən əldəqayırma minalar və onların hazırlanmasında daha çox insan tələfatına nail olmaq üçün istifadə edilən metal parçaları, eləcə də müxtəlif təxribatların törədilməsi məqsədilə hazırlanan digər partlayıcı qurğuların olduğu müəyyən edilib.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən Qarabağ iqtisadi rayonunda keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı Ermənistan silahlı qüvvələrinin birləşmələri və qeyri-qanuni erməni silahlı dəstələri məhz bu kimi emalatxanalarda kustar üsullarla hazırlanan müxtəlif partladıcılardan istifadə ediblər.

### Vəhşi heyvanlar da mina terrorunun qurbanına çevriliblər

Uzun illərdir Ermənistanın işğalı altında qalan torpaqlarımızda milyonlarla mina basdırılıb. Bu minaların qurbanı yalnız insanlar deyil, həm də vəhşi heyvanlardır.

Bir neçə gün öncə işğaldan azad edilmiş Laçın rayonunda minanın partlaması nəticəsində həlak olan qonur ayı balasının qalıqları tapılıb. Ayılardan biri minaya düşərək şikəst qalıb, digəri isə ölüb. Partlayış sahəsindən toplanmış minaların damğaları onların 2021-ci ildə Ermənistanda istehsal olunduğunu göstərir. Bu isə o deməkdir ki, Ermənistan 2020-ci ildə 44 günlük müharibədən sonra da Laçın yolundan sui-istifadə ilə Azərbaycan ərazilərini minalamağa davam edib.

Hətta bir neçə il əvvəl Ümumdünya Təbiəti Mühafizə Fondu (WWF) Ermənistanla Azərbaycan sərhədində ayaqları sikəst qalmış 2 bəbirin (Panthera pardus) təsvirini də yaymışdı. Yalnız 2023-cü ilin sentyabrında Azərbaycan Ordusunun icra etdiyi lokal xarakterli antiterror tədbirləri ilə Ermənistanın Azərbaycanın suveren ərazilərini minalamasının qarşısı alınıb.

Mina təhlükəsinin böyüklüyü və törətdiyi fəsadlar bu problemin qlobal səviyyədə həll olunmasını labüd edir. Qarabağ və Şərqi Zəngəzurda mina qurbanı olan heyvanlar içərisində nəsli kəsilməkdə olan Beynəlxalq Qırmızı Siyahıya düşmüş növlər də var.

"Bioloji Müxtəliflik Mərkəzi" İctimai Birliyi azad edilmiş ərazilərdə minaya düşən heyvanlarla əlaqədar olaraq heyvanların müdafiəsi üzrə dünya təşkilatlarına müraciət edib. Müraciətdə bildirilir ki, Ermənistan Respublikası tərəfindən heyvanlara, vəhşi faunaya qarşı sərgilənən bu cür qəddar münasibət yolverilməzdir. Cənubi Qafqaz kimi biomüxtəliflik cəhətdən zəngin bir regionun nadir təbiət inciləri, heyvanları bu cür rəftara məruz qalmamalıdır.

Müraciətdə Ermənistanın heyvanlardan həm də sui-qəsdçi kimi istifadə etməsinə də yer verilib: "2023-cü il sentyabrın 11-də Ermənistanın Azərbaycan ərazisindəki qeyri-qanuni silahlı dəstələri itin üzərinə uzaqdan idarə olunan əldəqayırma partlayıcı qurğu bağlayaraq, onu Azərbaycan Ordusunun mövqeləri istiqamətində hərəkət etməyə məcbur etmişdilər. Azərbaycan Ordusunun hərbi qulluqçularının sayıqlığı nəticəsində terror aktının qarşısı alınmışdı.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Fransa indi də "erməni abidələri" avantürasına başlayır

## Koloniolist ölkənin Azərbaycana qarşı hansısa iddialar səsləndirməsi gülüncdür

**"Bizim bütün dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Dünya 30 il ərzində buna səssiz qalıb...**



...İndi bəziləri azad edilmiş torpaqlarda ermənilərin dini irsi haqqında məsələ qaldırırlar. Bəs, bizim milli-dini irsimiz haqqında niyə heç kim məsələ qaldırmayıb?"

2020-ci il dekabrın 23-də Zəngilanda mənfur düşmən tərəfindən dağıdılan məscidin qarşısında çıxışı zamanı Prezident İlham Əliyevin vurğuladığı kimi, işğal etdiyi ərazilərimizdə düz üç onillik boyu tarixi, dini, mədəni irsimizi vəhşicəsinə dağıdan Ermənistana dünya ictimaiyyəti heç bir təpki göstərməyib.

Azərbaycan dövləti Ermənistanın bu cinayətlərini dəfələrlə beynəlxalq platformalarda qaldırsa da, başda qərəzli Fransa olmaqla, bir çox ölkələr, eləcə də ikilistandartlarla fəaliyyət göstərən beynəlxalq qurumlar ermənilərin barbar əməllərini görməzdən gəliblər, xalqımızın maddi-mədəni irsinin məhvinə susqunluq göstəriblər.

Lakin 44 günlük Vətən müharibəsindən sonra bu riyakar ölkə və qurumlar, yenə də neokolonist Fransa başda olmaqla birdən-birə heç bir təhlükə altında olmayan, dağıdılmayan, əksinə qorunan erməni xalqına məxsus maddi-mədəni irsin "keşik"çisi cildinə giriblər, Azərbaycana qarşı əsası olmayan ittihamlar səsləndirməyə başlayıblar.

Bu günlərdə Fransanın mədəniyyət naziri Rima Əbdül Məlәkin Ermənistana səfəri zamanı Qarabağ bölgəsindəki tarixi və mədəni abidələrin təhlükə altına düşməsi ilə bağlı iddialar qaldırması və onları qorumaq üçün müxtəlif mexanizmlərin yaradılmasına çağırış etməsi də Fransanın Azərbaycana qarşı sistemli şəkildə apardığı qərəzli siyasətinin daha bir alçaq nümunəsidir.

### Erməni vandalizminin İrəvan, Qarabağ və Şərqi Zəngəzur səhifəsi

Son iki əsrlik tarixboyu mənfur ermənilər xalqımıza qarşı həm də mədəni təmizləmə siyasəti həyata keçiriblər. Zorla yiyələnmək istədikləri tarixi ərazilərimizdə yer adlarımızı, toponimlərimizi dəyişib, mədəni, dini irsimizə yiyəlniblər, özününküləşdirə bilmədikləri - əksəriyyəti dini ocaqlarımız olan - maddi irsimizi isə dağıdıblar.

Tarixi faktdır ki, XX əsrin əvvəllərində İrəvan quberniyası ərazisində 300 məscidimiz qeydə alındığı halda, hazırda Ermənistan ərazisində - İrəvan şəhərində yalnız bir məscid - Göy məscid qismən salamat qalıb. Bu məscidin tamamilə dağıdılmaqdan qurtulması isə məkrli ermənilərin beynəlxalq ictimaiyyət qarşısında gözdən pərdə asmaq məqsədindən xəbər verir.

Vandal ermənilər Qarabağ və Şərqi Zəngəzurda da Azərbaycan xalqına qarşı mədəni soyqırımı törədiblər.

1990-cı illərin əvvəllərinə olan statistikaya əsasən, işğal edilmiş ərazilərimizdə 2625 abidə qeydə alınıb. Ermənistan işğal etdiyi ərazilərimizdə yüzlərlə mədəniyyət müəssisəsini, o cümlədən 4,6 milyon kitab fondu olan 927 kitabxananı, 808 mədəniyyət sarayını, klub və mədəniyyət evini, 85 musiqi və rəssamlıq məktəbini, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialını, 4 rəsm qalereyasını, 4 teatr müəssisəsini, 2 konsert müəssisəsini, 8 mədəniyyət və istirahət parkını, o cümlədən Füzuli rayonu ərazisində dünyanın ən qədim yaşayış məskənlərindən biri olan Azıx mağarasını, Şuşa Dövlət Tarix-Memarlıq Qoruğunu dağıdıb vandalizmin qurbanına çevirib.

İşğal dövründə Qarabağ və Şərqi Zəngəzurda islam mədəniyyətinə aid bütün məscidlər, abidələr dağıdılıb. Yalnız Ağdam Cümə məscidinin, Şuşa şəhərindəki Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin divarları salamat qalıb.

Tarixlərini saxtakarlıq üzərində quran ermənilərin müxtəlif dövrlərdə gerçəkləşdirmək istədikləri əsas məkrli niyyətlərindən biri də Azərbaycan ərazilərindəki Qafqaz alban irsinə yiyələnmək olub. Buna görə də işğal altında qalan bütün alban məbədlərində özününküləşdirmə, tarixi faktların saxtalaşdırılması ilə məşğul olublar. Bununla da Azərbaycan ərazilərinə olan iddialarına tarixi don geyindirməyə, bu saxta faktlarla dünyanı yalanlarına inandırmağa cəhd ediblər.

Lakin 44 günlük Vətən müharibəsi nəticəsində, torpaqlarımızın işğaldan azad edilməsi ilə erməni vandallığı ilə üz-üzə qalmış tarixi, dini, mədəni abidələrimiz də qurtulub, mənfurların tarixi irsimizə yiyələnmək kimi murdar iştahaları gözlərində qalıb.

### Koloniolist ölkənin növbəti zəifliyi və qərəzi

O da faktdır ki, Azərbaycan ərazisində bütün xalqlara aid olan abidələri mühafizə və bərpa edir. Eyni zamanda Qarabağda həyata keçirilən lokal antiterror əməliyyatından sonra Qarabağda olan mədəniyyət və tarixi abidələr dövlətimiz tərəfindən qorunur. Hətta bu fakt BMT-nin regiona reallaşdırılan iki missiyası tərəfindən də təsdiqlənib.

Fransanın mədəniyyət naziri Rima Əbdül Məlәkin Ermənistana səfəri zamanı ölkəmizə qarşı səsləndirdiyi iddialara münasibət bildirən Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə də vurğulayıb ki, sözügedən səfər və Azərbaycanın Qarabağ bölgəsində mədəni irslə bağlı iddialar Fransa tərəfinin növbəti zəifliyi və qərəzinin nümunəsidir: "Azərbaycan öz ərazilərindəki bütün mədəni və tarixi abidələrin mühafizəsinin vacibliyini və bu xüsusda öhdəliklərini çox gözəl dərk edir. Fransanın başqa xalqlara məxsus tarixi və mədəniyyət sərvətlərini müsadirə etmiş ölkə kimi belə iddialar qaldırmağa heç bir mənəvi haqqı yoxdur. Azərbaycanın antiterror tədbirlərindən sonra mədəniyyət və tarixi abidələrin təhlükə altında olması ilə bağlı iddialar əsassızdır və bu, BMT-nin regiona reallaşdırılan iki missiyası tərəfindən də təsdiqlənib".

XİN sözçüsü onu da əlavə edib ki, təəssüflər olsun ki, Fransa nə keçmiş Ermənistan-Azərbaycan münaqişəsində vasitəçi kimi, nə də UNESCO çərçivəsində nüfuzlu ölkə kimi heç vaxt Ermənistan tərəfindən istər Azərbaycan, istərsə də Ermənistan ərazilərində mövcud tarixi, mədəni və dini abidələrin tamamilə dağıdılmasından narahatlığını ifadə etməyib: "Fransa tərəfini Azərbaycanın daxili işlərinə qarışmamağa və bu cür təxribat xarakterli bəyanatlara son qoymağa çağırırıq".

### Fransanın səviyyəsizliyi

Ermənistanı forpostuna çevirərək Cənubi Qafqaza soxulmaq istəyən Fransa Azərbaycana qarşı qərəzli və riyakar siyasət həyata keçirir. Gah Avropa Parlamentində "qətnamə" adı altında kağız parçaları qəbul etdirir, Ermənistanı silahlandıraraq müharibəyə qızışdırır, gah da ali səviyyədə - yəni, əslində aşağı səviyyədə - ölkəmizi ittiham edən fikirlər səsləndirir.

Amma 30 il ərzində Ermənistanın ərazilərimizdəki maddi-mədəni irsi vəhşicəsinə dağıtmasına kor olan koloniolist ölkənin Azərbaycana qarşı hansısa iddialar səsləndirməsi yumşaq desək, gülüncdür.

Yaxşı olar ki, Fransa erməni ağzı ilə yalan çərənləməkdənsə, müstəmləkəçi ölkə kimi başqa xalqların tarixi, mədəni sərvətlərini mənimsəməkdən əl çəksin.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*





# Ağrı-acılarımızın ən böyük təsəllisi - QƏLƏBƏ

## Bərdə terrorundan üç il keçir

Ermənistan silahlı qüvvələri tərəfindən törədilən Bərdə terrorundan üç il ötür. Bu dəhşətli faciəni, bu qanlı tarixi unutmaq qeyri-mümkündür. Bu, həqiqətdir ki, müharibə qansız-qadasız, qurbansız olmur. Amma o da vacib şərtdir ki, gərək müharibəni kişi kimi aparasan. Mülki əhaliyə, uşağa, qadına, qocaya güllə atmayasan.





Müharibə şəraitində yaşadığımız son 30 ildə, heç son 200 ildə də biz ermənilərdə kişilik, mərdi-mərdanəlik görmədik. Əsgər cəbhə xəttində əsgərlə döyüşər. Müharibənin əsas şərti, qaydası budur. Azərbaycan Ordusunun tarixə qızıl hərflərlə yazdığı 44 günlük savaşda rüsvaycasına məğlub olduğunu həzm edə bilməyən erməni silahlıları cəbhə xəttindən uzaq məsafədə yerləşən yaşayış məntəqələrini raket artilleriya atəşinə tutur, kəndləri, şəhərləri dağıdır, çox sayda dinc əhalinin ölümünə imza atır, günahsız insanları qətlə yetirirdi. Bunun yalnız bir adı var - şərəfsizlik!

2020-ci ilin 28 oktyabrı. Saat 13 radələri. Düşmənlə təmas xəttindən 100 kilometrdən artıq bir məsafədə yerləşən Bərdə şəhəri adi günlərindən birini yaşayır. Həmişə olduğu kimi küçələrdə yenə də sıxlıqdır. Ermənistan silahlı qüvvələrinin işğal etdiyi rayonlardan qaçıb Bərdəyə sığınan insanların hesabına şəhərin küçələrində əhali sıxlığı var. Qəfil partlayış səsləri eşidilir. Ard-arda partlayan raketlərdən ayrılan qəlpələr ətrafa dolu kimi yağır. Avtomobillər alışıb yanır, çox sayda insan bir anın içində həlak olur. Bərdə şəhərinin küçələri qan gölünə çevrilir.

Hər birinin içində 72 ədəd 9N235 saylı, ümumilikdə 144 bombacıq olan "Smerç" tipli əməliyyat-taktiki təyinatlı 9m525 qəlpəli böyük dağıdıcı qüvvəyə malik ballistik "Claster" tipli 2 ədəd raket zərbəsi Bərdədə böyük faciəyə səbəb oldu, sanki şəhərin üstünə matəm pərdəsi çəkdilər. Ümumiyyətlə, 44 günlük savaş dövründə Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə rayonu ərazisinə 70-dən çox müxtəliftəyinatlı raket artilleriya zərbəsi endirilib. Nəticədə 28 nəfər dinc sakin həlak olub, 108 nəfər yaralanıb.









Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı erməni faşistlərinin törətdiyi, insanlıqdan çox-çox uzaq olan bu qanlı terror hadisəsinə dərhal reaksiya verdi. Azərbaycan xalqına, Bərdə camaatına ürək ağrısı ilə başsağlığı verən dövlət başçısı eyni zamanda əmin etdi ki, bu qan yerdə qalmayacaq, yaxın zamanda düşməndən layiqli qisas alınacaq. Hər zaman verdiyi vədə, dediyi sözə sahib çıxan İlham Əliyevin müzəffər sərkərdə iradəsi, Azərbaycan əsgərinin qəhrəmanlığı ilə Ermənistan ordusu darmadağın oldu, düşmən sarsıdan zərbələrlə rüsvayçı məğlubiyyətə uğradıldı, kapitulyasiya aktına qol çəkməyə məcbur edildi.

Düşməndən alınan layiqli qisas, otuz il işğal altında qalan torpaqlarımızın azad edilməsi, Şuşada, Ağdamda, Laçında, Kəlbəcərdə... üçrəngli bayrağımızın dalğalanması ağrı-acılarımıza, yaralarımıza ən yaxşı məlhəm oldu. Arayiklərin, Vardanyanların... qandallanıb Bakıya gətirilməsi, törətdikləri cinayət əməllərinə görə istintaqa cəlb edilməsi Azərbaycanın haqlı olmasını təsdiq edən ilahi ədalətin zəfəri kimi qiymətləndirilməlidir.

Bu gün Bərdədə xoş ovqat yaşanır. Antiterror əməliyyatının uğurlu nəticələri sayəsində Xankəndi də daxil olmaqla bütün Qarabağa nəzarət edirik. Bu, təbii ki, hər bir Azərbaycan vətəndaşının qəlbini qürurla doldurur.

...Aylar, illər ötüb keçsə də, yaşanan sevincli-fərəhli, dərdli-kədərli günlər xatirələrə çevrilib yaddaşlarımıza həkk olur. Qədirbilən xalqımız heç kimi unutmur, heç nəyi yaddan çıxarmır.

Qarabağ savaşında vətən uğrunda canlarından keçib şəhidlik zirvəsinə ucalan qəhrəman oğullarımızın xatirəsi bizim üçün son dərəcə əzizdir. Gəncə, Bərdə terrorunun, eləcə də erməni faşistlərinin törətdikləri bir çox qanlı hadisələrin günahsız qurbanları da hər zaman rəhmətlə yad edilir. Qoy onların ruhu şad olsun ki, igid, qəhrəman Azərbaycan əsgərləri düşmənə qan uddurub, erməni faşistlərinin törətdikləri cinayətlərin qisasını yüzqat artıqlaması ilə alıblar.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***





# 28 oktyabr 2020-ci il
## ZƏFƏR gündəliyi

Humanitar atəşkəs rejiminə riayət etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 27-si gün ərzində və 28-nə keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və cəbhəboyu zonaya yaxın yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutur.

Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı istiqamətlərində davam edir. Düşmənin hücum cəhdlərinin qarşısı qətiyyətlə alınır, o, itki verərək geri çəkilir.

Ermənistandan toplanan hərbi vəzifəlilərin Azərbaycanın işğal olunmuş ərazilərinə göndərilməsi prosesi davam edir. İşğalçı dövlətdə döyüşlərə cəlb etmək məqsədilə 2000 nəfərdən ibarət heyətin toplanması barədə tapşırığın verilməsinə baxmayaraq, cəmi 300 nəfəri toplamaq mümkün olur. Hətta bir çox hərbi müqavilələr və polis əməkdaşları cəbhəyə getməkdən imtina edirlər.

❖❖❖

Ermənistan silahlı qüvvələrinin bölmələri gecə və səhər müxtəlif vaxtlarda Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən yaşayış məntəqələrimizi və bölmələrimizin mövqelərini atıcı silahlardan atəşə tuturlar.

Həmçinin səhər saat 07:30, günorta 14:40 radələrində Ermənistan silahlı qüvvələri Tərtər, Bərdə və Goranboy rayonlarının ərazisini atəşə tuturlar.

❖❖❖




Prezident İlham Əliyev özünün rəsmi "X" səhifəsində paylaşım edir: Paylaşımda deyilir:

"Erməni silahlı qüvvələrinin raketlərlə hücumu nəticəsində Bərdədə həlak olanlara Allahdan rəhmət diləyir, ailələrinə başsağlığı verir, yaralıların şəfa tapmasını diləyirəm. Bərdə sakinlərinin qisası yerdə qalmayacaq və döyüş meydanında işğalçılara layiqli cavab veriləcək".

❖❖❖

Ermənistan ordusu Qubadlı istiqamətində gedən döyüşlər zamanı silahını, texnikasını qoyub qaçır. Azərbaycan Müdafiə Nazirliyi düşmənin atıb qaçdığı hərbi texnika və silah-sursatların fotosunu və videogörüntüsünü yayır.

❖❖❖




"Müzəffər Azərbaycan Ordusu Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac, Qubadlının Qiyaslı, Əbilcə, Qılıcan kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

Bu barədə Prezident İlham Əliyev özünün rəsmi "X" səhifəsində bildirir.

❖❖❖

Düşmən dezinformasiya yaymaqla törətdiyi hərbi cinayətlərdən diqqəti yayındırmağa çalışır.

Müdafiə Nazirliyinin yaydığı məlumatda qeyd edilir ki, Ermənistan mətbuatının Azərbaycan Ordusu tərəfindən Xankəndidə yerləşən doğum evinin guya atəşə tutulması barədə xəbəri məqsədyönlü şəkildə yayılan dezinformasiyadır.

Bu məlumatla düşmən bir qədər əvvəl Bərdə şəhərində törətdiyi çoxsaylı insan tələfatı ilə nəticələnən hərbi cinayətindən diqqəti yayındırmağa çalışır.

❖❖❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər rayonunun ərazisini BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemlərdən və toplardan atəşə tuturlar.

❖❖❖



Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistan silahlı qüvvələrinin Bərdəyə növbəti dəfə raket hücumu ilə əlaqədar rəsmi instaqram səhifəsində paylaşım edir.

Paylaşımda deyilir:

"Bu gün Ermənistan silahlı qüvvələri dinc Azərbaycan şəhəri Bərdəyə növbəti dəfə qəddarcasına, qeyri-insani zərbə endiriblər. Zərbə nəticəsində 21 nəfər həlak olub, 70 nəfər ciddi xəsarət alıb. Təəssüf ki, qurbanların sayı artmaqda davam edir.

Bu cür vəhşicəsinə hücumlar onu göstərir ki, ermənilərin qəddarlığının həddi yoxdur. Üstəlik, Azərbaycanın dinc mülki əhalisinə hər bir hücumu Ermənistanın ağlını itirmiş hərbi-siyasi rəhbərliyinin total mənəvi tənəzzülünə dəlalət edir.

Bu hücumların məqsədi aydındır - Azərbaycan xalqını qorxutmaq və bizim ordumuzu Ermənistan ərazisinə cavab zərbəsi endirməyə məcbur etmək. Bu, üçüncü tərəfləri münaqişəyə cəlb etməyə imkan verərdi. Lakin düşmənimiz bilməlidir ki, heç nə bizi haqq yolundan dönməyə məcbur edə bilməz. Hər hücum bizi daha da güclü edir və işğal olunmuş ərazilərimizin erməni təcavüzkarlardan azad edilməsi kimi müqəddəs missiyanı başa çatdırmağın zəruri olmasına inandırır. Həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir və yaralananların tezliklə sağalmalarını arzulayıram.

Azərbaycan Ordusu düşməni döyüş meydanında sıxışdırdığı bu günlərdə biz həmrəyliyimizi qoruyub saxlamalı və Prezidentimizin ətrafında möhkəm birləşməliyik.

Yalnız möhkəm yumruq kimi birləşməklə ədalətin zəfər çalmasına nail olacağıq, ona görə ki, Qarabağ Azərbaycandır!

Uca Tanrı Vətənimizi və Azərbaycan xalqını qorusun!"

❖❖❖

Prezident İlham Əliyev Rusiyanın "İnterfaks" Agentliyinə müsahibə verir. Azərbaycan Ordusunun uğurlu əməliyyatlarından danışan dövlət başçısı deyir ki, ordumuz döyüş meydanında özünün üstünlüyünü sübut etdi. İşğal edilmiş ərazilərin xeyli hissəsi bu bir ay ərzində azad olundu. Bu göstərir ki, Azərbaycan Ordusunun dünyada ən yaxşı döyüş qabiliyyətinə malik ordulardan biri hesab edilməsi əbəs deyildi.

Prezident bir daha əməliyyatların dayandırılması məsələsinə toxunur: "Biz Ermənistan tərəfindən onların yüksək rəhbərliyinin şəxsində öhdəlik almalıyıq ki, qoşunları işğal olunmuş ərazilərdən çıxaracaqlar. Hələlik biz bunu eşitməmişik. Erməni rəhbərliyindən bu cür öhdəlik alınandan və bu, ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən təsdiq ediləndən dərhal sonra biz hərbi əməliyyatları dayandırmağa hazırıq".

❖❖❖

Gün ərzində mülki infrastrukturu və dinc əhalini atəşə tutan düşmənin canlı qüvvəsi bölmələrimizin sərrast atəşi ilə məhv edilir. Bölmələrimizin dəqiq atəş zərbələrinə tab gətirə bilməyən düşmən döyüş meydanından qaçır.

Humanitar atəşkəs rejimini kobudcasına pozaraq şəhər və rayonlarımıza atəş açan düşmənin qüvvə və vasitələrini Azərbaycan Ordusunun bölmələri darmadağın edirlər.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 382

QƏRAR

Bakı şəhəri, 26 oktyabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 avqust tarixli 292 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qeyri-hökumət təşkilatları tərəfindən mədəniyyət sahəsində keçirilən tədbirlərin dövlət maliyyələşdirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 avqust tarixli 292 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 8, maddə 1024; 2016, № 3, maddə 598; 2019, № 3, maddələr 517, 527; 2020, № 10, maddə 1308; 2021, № 9, maddə 1064) ilə təsdiq edilmiş "Qeyri-hökumət təşkilatları tərəfindən mədəniyyət sahəsində keçirilən tədbirlərin dövlət maliyyələşdirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-ci bəndə "tədbirlərin" sözündən sonra "və layihələrin (bundan sonra - tədbir)" sözləri əlavə edilsin.

2. 1.2-ci bənddə "layihələri" sözü "tədbirləri" sözü ilə, "tədbirlər" sözü isə "fəaliyyətlər" sözü ilə əvəz edilsin.

3. 2.1-ci bənddən "yanvarın 31-dək" sözləri çıxarılsın və həmin bənddə "3 (üç) iş günü müddətində" sözləri "ərizələrin təqdim edilməsi üçün müəyyənləşdirilmiş son tarixdən ən azı 10 (on) gün əvvəl" sözləri ilə əvəz edilsin.

4. 2.1-ci, 2.11-ci, 3.3-cü bəndlərdə "elektron saytında" sözləri "internet səhifəsində" sözləri ilə əvəz edilsin.

5. 2.2-ci bənddə "hər il martın 1-dək" sözləri "elanda müəyyən edilmiş müddət ərzində" sözləri ilə əvəz edilsin.

6. 2.3-cü bənddə "düzgünlüyünün və tamlığının yoxlanılması üçün müvafiq şöbəyə təqdim edilir" sözləri "düzgünlüyü və tamlığı yoxlanılır" sözləri ilə əvəz edilsin.

7. 2.4-cü bəndə "qəbulu üçün" sözlərindən sonra "elanda" sözü əlavə edilsin, "müddətdə" sözü "müddət ərzində" sözləri ilə əvəz edilsin.

8. 3.1-ci bənddən "hər il mayın 1-dək" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 383

QƏRAR

Bakı şəhəri, 26 oktyabr 2023-cü il

## "Qida və yem məhsullarına sağlamlıq sertifikatlarının verilməsi Qaydası və forması"nın təsdiq edilməsi haqqında

"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.1.11-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Qida və yem məhsullarına sağlamlıq sertifikatlarının verilməsi Qaydası və forması" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 26 oktyabr tarixli 383 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# Qida və yem məhsullarına sağlamlıq sertifikatlarının verilməsi Qaydası və forması

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 26.6-cı maddəsinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikasının ərazisindən xarici ölkələrə ixrac və ya təkrar ixrac edilən qida və yem məhsullarına (bundan sonra - məhsul) idxalçı ölkələr tələb etdiyi hallarda, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra - Agentlik) tərəfindən sağlamlıq sertifikatlarının verilməsi qaydasını və formasını müəyyən edir.

1.2. Bu Qaydada istifadə olunan anlayışlar "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında nəzərdə tutulan mənaları ifadə edir.

### 2. Qida və yem məhsullarının sertifikatlaşdırılması

2.1. Məhsullara idxalçı ölkələr tələb etdiyi hallarda Agentlik tərəfindən idxalçı ölkələrin tələbləri nəzərə alınmaqla sağlamlıq sertifikatı (bundan sonra - sertifikat) verilir.

2.2. İdxalçı ölkələr tələb etdiyi hallarda Agentlik tərəfindən ixrac olunan heyvan mənşəli qida məhsullarına verilən sağlamlıq sertifikatı həmin məhsulların qida təhlükəsizliyi göstəriciləri ilə yanaşı, "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən heyvan sağlamlığı göstəricilərinə uyğunluğunu da təsdiq edə bilər.

2.3. Sertifikatlaşdırılma prosedurları Agentliyin Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi İnformasiya Sistemi vasitəsilə həyata keçirilir.

2.4. Sertifikatın alınması üçün "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.1-ci maddəsinə uyğun olaraq ərizə ilə Agentliyə ixracatçı tərəfindən müraciət olunmalıdır.

2.5. Ərizədə aşağıdakı məlumatlar göstərilməlidir:

2.5.1. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsi ilə müəyyən edilmiş məlumatlar;

2.5.2. ixracatçının elektron poçt ünvanı və telefon nömrəsi (olduğu halda), VÖEN-i, qeydiyyatına və ya təsdiqinə dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarışın nömrəsi;

2.5.3. məhsulun istehsalçısının adı və ünvanı (hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının və nümayəndəliyinin adı və hüquqi ünvanı, fərdi sahibkarın soyadı, adı, atasının adı və fəaliyyət ünvanı);

2.5.4. məhsulun təyinat ölkəsində idxalçısının (qəbul edənin) adı və ünvanı;

2.5.5. məhsulun mənşə və təyinat ölkəsi;

2.5.6. məhsulun yüklənmə ünvanı;

2.5.7. məhsulun daşınacağı nəqliyyat vasitəsinin növü və dövlət qeydiyyat nişanı (o cümlədən qoşqunun);

2.5.8. məhsul haqqında məlumatlar:

1. adı;
2. çəkisi (netto və brutto) və miqdarı;
3. qablaşdırmanın növü və sayı;
4. istehsal tarixi və yararlılıq müddəti;
5. partiya nömrəsi;
6. daşınması zamanı saxlanma şəraiti;

2.5.9. ərizəçinin istəyinə uyğun olaraq məhsulla bağlı laboratoriya tərəfindən aparılmış tədqiqin (sınağın) nəticəsinə dair protokolun sertifikata əlavə edilməsi barədə qeyd.

2.6. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla ərizəyə aşağıdakı sənədlər əlavə edilməlidir:

2.6.1. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respub-likası Qanununun 18.2.1-18.2.3-cü maddələrində nəzərdə tutulmuş sənədlər;

2.6.2. ixrac üçün alqı-satqı müqaviləsi.

2.7. İxrac edilən məhsullara sertifikat verilərkən təhlükəsizlik və minimum keyfiyyət göstəricilərinin müəyyən edilməsi məqsədilə Agentliyin mütəxəssisləri tərəfindən qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydada və miqdarda ixrac edilən məhsul partiyasından nümunələr götürülərək, "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada akkreditasiyadan keçmiş laboratoriyalarda onların tədqiqi (sınağı) aparılır.

2.8. Nümunələrin götürülməsi üçün qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarda nəzərdə tutulmuş metodlardan istifadə edilir.

2.9. Bu Qaydanın 2.8-ci bəndində göstərilən metodların tətbiqi mümkün olmadıqda və ya belə texniki normativ hüquqi aktlar mövcud olmadıqda, Azərbaycan Respublikasının digər sahələrə aid texniki normativ hüquqi aktlarında nəzərdə tutulmuş məhsul nümunələrinin götürülməsi metodları tətbiq edilir. Əgər bu metodların da tətbiqi mümkün olmazsa və ya belə texniki normativ hüquqi aktlar mövcud olmazsa, Azərbaycan Respublikasının üzv olduğu müvafiq beynəlxalq təşkilatlar tərəfindən müəyyən edilmiş metodlardan istifadə olunur.

2.10. Nümunələrin laboratoriya tərəfindən tədqiqi (sınağı) ilə bağlı xərclər ərizəçinin vəsaiti hesabına ödənilir.

2.11. Nümunələrin tədqiqi (sınağı) ərizəçinin seçiminə uyğun olaraq "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada akkreditasiyadan keçmiş laboratoriyalarda və ya Agentliyin tabeliyində olan akkreditasiya edilmiş sınaq laboratoriyalarında həyata keçirilir.

2.12. Nümunələrin tədqiqi (sınağı) Agentliyin tabeliyində olan akkreditasiya edilmiş sınaq laboratoriyalarında aparıldığı halda, nümunənin tədqiqi (sınağı) yalnız ərizəçi tərəfindən məhsulun ekspertizası üçün müvafiq xidmət haqqı ödənildikdən sonra təmin edilir.

2.13. Bu Qaydanın 2.10-cu və 2.12-ci bəndləri nəzərə alınmaqla, məhsulların laboratoriyalar tərəfindən 7 (yeddi) iş günü ərzində tədqiqi (sınağı) aparılaraq nəticəsi Agentliyə təqdim edilir. Laboratoriyaların əsaslandırılmış müraciəti ilə həmin müddət 20 (iyirmi) iş günündən çox olmayan müddətə uzadıla bilər və qeyd olunan müddət sertifikatın verilməsi ilə bağlı 2.15-ci bənddə göstərilən müddətə daxil edilmir.

2.14. İdxalçı ölkələr tələb etdiyi halda laboratoriya tərəfindən aparılmış tədqiqin (sınağın) nəticəsinə dair protokol sertifikata əlavə olunur. Protokolun sertifikata əlavə olunması üçün ödəniş tələb edilmir.

2.15. Sertifikatın verilməsi və bunun üçün dövlət rüsumunun ödənilməsi, sertifikatın dublikatının verilməsi, yenidən rəsmiləşdiril-məsi, ləğv edilməsi qaydaları "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir və sertifikat həmin Qanunla müəyyən olunmuş qaydada 7 (yeddi) iş günündən gec olmayaraq verilir.

2.16. Sertifikatın verilməsindən aşağıdakı hallarda imtina edilir:

2.16.1. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 20.1-ci maddəsi ilə müəyyən edilmiş hallarda;

2.16.2. məhsullar qida təhlükəsizliyi və (və ya) minimum keyfiyyət göstəricilərinə uyğun olmadıqda;

2.16.3. məhsullar heyvan sağlamlığı göstəricilərinə uyğun olmadıqda.

2.17. Sertifikatın verilməsindən imtina edildikdə və ya ərizə baxılmamış saxlanıldıqda, Agentlik ərizənin qeydiyyata alındığı tarixdən 7 (yeddi) iş günündən gec olmayaraq, sertifikatın verilmə-sindən imtina və ya ərizənin baxılmamış saxlanılması haqqında inzibati akt qəbul edir. Həmin inzibati akt qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində subyektə (ərizəçiyə) təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

### 3. Sertifikatın forması

3.1. Sertifikatın forması bu Qaydanın əlavəsi ilə müəyyən olunur.

3.2. Sertifikat unikal (təkrarlanmayan) elektron qaydada verilən eyniləşdirmə nömrəsinə malik olmaqla aşağıdakı tələblərə cavab verməlidir:

3.2.1. daxil edilmiş məlumatlar düzgün olmalıdır;

3.2.2. imzalayan şəxsi və sənədin verilmə tarixini müəyyənləşdirməyə imkan verməlidir;

3.2.3. istinad olunan rəsmi tələbləri dəqiq ehtiva etməlidir.

3.3. Sertifikat ərizəçiyə kağız və elektron formada verilir. Sertifikatın kağız nüsxəsi hazırlanır və sənədin əsli Agentliyin səlahiyyətli şəxsi tərəfindən imzalanıb möhürlənərək ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

3.4. Sertifikat Azərbaycan Respublikasının dövlət dilində və ingilis dilində verilir.

3.5. Sertifikatın qüvvədə olma müddəti bir aydır (məhsulun yararlılıq müddətindən çox olmamaqla) və bu müddət ərzində məhsullar ixrac edilməzsə, sertifikat qüvvədən düşmüş sayılır.

3.6. Sertifikatın sahibi ona verilən sertifikatdan yalnız sertifikatda göstərilən məhsul partiyası üçün istifadə edə bilər.

3.7. İxrac zamanı məhsul sertifikatla müşayiət olunur.

*"Qida və yem məhsullarına sağlamlıq sertifikatının verilməsi Qaydası və forması"na əlavə*

| AQTA — Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi<br>Ünvanı/Address: | **Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi**<br>**Sağlamlıq Sertifikatı**<br>**Food Safety Agency of the Republic of Azerbaijan**<br>**Health Certificate**<br>**(ixrac / export)** |
|---|---|
| **İxracatçı ölkə** / Exporter country | |
| **1. İxracatçı barədə məlumat:**<br>(hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının və nümayəndəliyinin adı və hüquqi ünvanı, fərdi sahibkarın soyadı, adı, atasının adı və fəaliyyət ünvanı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi)<br>/ Exporter: (name of the legal entity, legal address, surname, name, patronymic of the individual entrepreneur, location and code of the taxpayer) | **2. Sertifikatın nömrəsi və verilmə tarixi:**<br>/ Number and Issue Date of the Certificate: |
| **3. İxracatçının qeydiyyatına (təsdiqinə) dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarışın nömrəsi: /** Food Safety Registration (Approval) Number of Exporter: | **4. Mənşə ölkəsi:** / Country of Origin:<br>İSO Kodu / ISO Code: |
| **5. Təyinat ölkəsi:** / Country of Destination:<br>**İSO Kodu** / ISO Code: | **6. İdxalçının (qəbul edənin) adı və ünvanı:**<br>/ Name and Address of the Importer: |
| **7. Yükün çəkisi:** / Total weight of consignment:<br>**7.1. xalis çəki:** / Net Weight: — **7.2. qablaşdırma çəkisi:** / Brutto Weight: | **8. Qablaşdırmanın ümumi sayı:**<br>/ Total Number of Packages: |
| **9. Yüklənmə yeri:** / Place of Loading: | **10. Nəqliyyat vasitəsi:** / Means of Transport: |
| **11. Nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanı:**<br>/ Identification Number of transport: | **12. Məhsulun daşınması zamanı saxlanma şəraiti:** / Conditions of Storage while transport: |

**Məhsul haqqında məlumat /** Information about product

| 13. Məhsulun adı / Name of the Product: | 14. İstehsalçı müəssisənin adı və ünvanı / Name and Address of the Producer: | 15. Partiyanın nömrəsi / Lot Number: | 16. Qablaşdırma növü / Type of Packaging: | 17. Qablaşdırma sayı / The Number of Packaging: | 18. Xalis çəki / Net Weight: | 19. Qablaşdırma çəkisi / Brutto Weight: | 20. İstehsal tarixi / Production Date: | 21. Son istifadə tarixi / Expiration Date: | 22. Yararlılıq müddəti / Shelf life (month): |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | |

**Bu Sertifikatın qüvvədə olma müddəti bir aydır (məhsulun yararlılıq müddətindən çox olmamaqla) və bu müddət ərzində məhsullar ixrac edilməzsə, Sertifikat qüvvədən düşmüş sayılır.** / The validity period of the certificate is one month, not exceeding the shelf life of the product, and if the products are not exported within this period, the certificate is considered invalid.

**Bu Sertifikat təsdiq edir ki, yuxarıda göstərilən məhsul təhlükəsizlik və minimum keyfiyyət tələblərinə uyğundur.** / This is to certify that the product lot described above complies with the minimum quality and safety requirements.

QR kod

| **Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin səlahiyyətli nümayəndəsi.** / Authorised Representative of the Food Safety Agency of the Republic of Azerbaijan. | **İmza / Signature** | **Möhür** / Stamp |
|---|---|---|

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Qarşılıqlı inam və etibarlı tərəfdaşlığın bəhrəsi

### BTC-nin Azərbaycan və Gürcüstan hissələrinin birləşməsindən 19, Gürcüstan hissəsinin istifadəyə verilməsindən isə 18 il keçir



**Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin salnaməsini vərəqləyəndə görürük ki, ilin hər ayı bu möhtəşəm boru xətti üçün hansısa bir mühüm hadisə ilə əlamətdardır. Məsələn, ATƏT-in İstanbul Zirvə toplantısında "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyəti əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair" sazişin imzalanması noyabrda (1999-cu il) baş verib. Kəmərin təməli 2002-ci ilin sentyabrında qoyulub.**

BTC ilk neftini mayda (2005-ci il) qəbul edib, tam bir sistem kimi istismara isə növbəti ilin iyulunda verilib. Siyahını uzatmaq da olar və burada oktyabr ayı özünə önəmli hadisələrlə yer alıb. Belə ki, layihənin reallaşması qarşısında yaşıl işıq yandıran ilk sənəd - Ankara Bəyannaməsi 1998-ci ilin oktyabr ayında imzalanıb. BTC-nin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsi, eləcə də kəmərin qonşu respublikadakı hissəsinin istifadəyə verilməsi kimi mühüm hadisələr həmçinin oktyabr ayına təsadüf edib. Bunlardan biri 2004-cü, digəri 2005-ci ildə olub.

Boru xəttinin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsi münasibətilə tədbir 2004-cü il oktyabrın 16-da Azərbaycanın Ağstafa rayonunun Böyük Kəsik kəndində - Gürcüstanın Qardabani rayonu ilə sərhəddə keçirildi. Bu iki hissənin birləşdirilməsi BTC-nin çəkilişi boyu həyata keçirilən 15 min qaynaq əməliyyatından biri idi. Lakin bu, adi qaynaq deyildi. Bununla zəmanəmizin möhtəşəm layihələrindən biri, üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan BTC-nin tamamlanmasına doğru növbəti mühüm addım atılırdı. Bir də axı BTC daşıdığı iqtisadi önəmlə yanaşı, həm də ölkələri, xalqları yaxınlaşdıran, birləşdirən bir kəmərdir. Odur ki, xəttin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsi həm də dostluğun, tərəfdaşlığın, qarşılıqlı inamın daha bir təsdiqi idi.

Prezident İlham Əliyev tədbirdəki çıxışında tikilməkdə olan kəmərin əhəmiyyətini vurğulayaraq demişdir: "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi həm Azərbaycan üçün, həm Gürcüstan üçün, həm də bütün region üçün çox vacibdir. Bu, ölkəmizə yeni imkanlar yaradacaqdır, xalqlarımız üçün yeni şəraitin yaradılmasını təmin edəcəkdir. Əlbəttə ki, bu, ölkələrimizə böyük həcmdə maliyyə vəsaitinin cəlb olunmasına gətirib çıxaracaqdır. Eyni zamanda bu iqtisadi məsələlərlə yanaşı, regional təhlükəsizlik məsələlərinə də layihə öz töhfəsini verəcəkdir".

Həmin vaxt Azərbaycan, Gürcüstan və Türkiyənin ərazisində kəmərin tikinti dəhlizi tamamilə təmizlənmiş və açılmışdı. Boruların 97 faizi qaynaqlanmış və 70 faizi torpaqla örtüklənmişdi. BTC-yə vurulacaq ilk nefti "Mərkəzi Azəri" platforması verəcəkdi ki, onun da üst modulları artıq dənizdə quraşdırılmış dayaq bloku üzərində yerləşdirilmişdi. Səngəçal və Ceyhan terminallarında nefti qəbul etmək üçün hazırlıq işləri gedirdi və onların əsas hissəsi görülmüşdü.

Üç ölkə ərazisində kəmərin çəkilişində 21 min insan çalışırdı. BTC uğurla irəliləyirdi. Beləliklə, 2005-ci il mayın 25-də Səngəçal terminalından kəmərə ilk neft vuruldu. Başqa sözlə, boru xəttinin Azərbaycan hissəsi istifadəyə verildi, növbə Gürcüstan hissəsinin idi.

2005-ci il oktyabrın 12-də Gürcüstanın Qardabani rayonunda yerləşən 1 nömrəli nasos stansiyasının ərazisində BTC-nin bu ölkədəki hissəsinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirildi. Yeri gəlmişkən, xatırladaq ki, BTC-nin 8 nasos stansiyası və bir sıra digər yerüstü qurğuları var. Nasos stansiyalarının 2-si Azərbaycanda, 2-si Gürcüstanda, 4-ü isə Türkiyədə yerləşir.

2005-ci ilin sözügedən dövründə kəmərin iki ölkədəki hissəsi neftlə doldurulmuşdu, Türkiyə hissəsinə də artıq neft vurulurdu. Xətti tam doldurmaq üçün 10 milyon barel neft tələb olunurdu. Elə bu tədbirdə də qeyd edildi ki, BTC dünyanın böyük enerji layihələrindəndir.

BTC-dən sonra daha neçə qlobal layihə gerçəkləşib və bu layihələrdə Azərbaycanla Gürcüstan birlikdə olublar. Söhbət Bakı-Tbilisi-Ərzurum qaz kəmərindən, Bakı-Tbilisi-Qars dəmir yolundan, TANAP-dan (Trans-Anadolu Qaz Boru Kəməri) və digər layihələrdən gedir. Bu layihələr indi bir çox ölkənin enerji və nəqliyyat təhlükəsizliyinə xidmət göstərir.

"Həmçinin gələcək planlarımız üzrə birmənalı əməkdaşlığın dərinləşməsinə hesablanmış gündəlik vardır". Bu sözləri Prezident İlham Əliyev cari il oktyabrın 8-də Gürcüstana işgüzar səfəri zamanı mətbuata bəyanatında deyib. Dövlətimizin başçısı enerji sahəsində yeni layihələrin reallaşmasında da tərəfdaşlığın uğurla davam etdiyini vurğulayıb: "Energetika sahəsində ənənəvi sahələrdən başqa, bu gün bizi birləşdirən "Yaşıl enerji dəhlizi" layihəsidir. Burada da biz - yenə də Gürcüstan və Azərbaycan - iki qardaş ölkə Avropa ölkələri ilə sıx əməkdaşlıq edirik və yaxın aylarda bu layihənin texniki-iqtisadi əsaslandırması hazır olacaq. Əminəm ki, ondan sonra biz konkret işlərə start verə biləcik. Böyük sərmayə qoyuluşu nəzərdə tutulur və beləliklə, "Yaşıl enerji dəhlizi", enerji kabeli inşa edilərək həm bizim, həm də ki, tərəfdaş ölkələrin enerji təhlükəsizliyini gücləndirəcək. Bir sözlə, bu gün Gürcüstanın və Azərbaycanın birlikdə və digər qonşu ölkələrlə birgə icra etdiyi layihələr böyük məna daşıyır, təkcə Cənubi Qafqaz regionu üçün deyil, böyük mənada Avrasiya üçün və biz buna hazırıq. Bizdə həm güclü siyasi iradə var, artıq yaradılmış güclü infrastruktur var. Ən əsas amil isə Gürcüstan-Azərbaycan dostluğu və strateji tərəfdaşlığıdır".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## "Azərbaycanda 5 fintex şirkəti digər ölkələrin bazarına daxil olub"

**"Azərbaycanda 5 fintex şirkəti digər ölkələrin bazarına daxil olub". AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Azərbaycan Fintex Assosiasiyasının İdarə Heyətinin sədri Ruslan Talıbov deyib.**

R.Talıbov bildirib ki, bu sahədə ən mütərəqqi addım qanun layihəsinin qəbulu və qüvvəyə minməsidir. İndiyədək xarici investorlar və ya yerli şirkətlər başqa ölkələrə daxil olmaq istəyəndə o ölkələrin bazar iştirakçıları Azərbaycanda belə bir qanunvericiliyin olub-olmaması ilə maraqlanırlar. Qanunvericilikdən sonra sektorda ciddi təkan gözlənilir: "Hazırda Mərkəzi Bank lisenziyalaşdırma ilə bağlı qaydalar hazırlayır. Bu prosesdə bizimlə də yaxından əməkdaşlıq edilir".

## Azərbaycan neftinin qiyməti bahalaşıb: bir barelinin qiyməti 92,39 dollar olub

**Dünya bazarında Azərbaycan neftinin qiyməti bahalaşıb. AZƏRTAC xəbər verir ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,68 dollar artaraq 92,39 dollar olub.**



Azərbaycanın builki dövlət büdcəsində bir barel neftin orta qiyməti 60 ABŞ dollarından hesablanıb.

Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb. Azərbaycanda neft əsasən "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun işlənməsi haqqında müqavilə çərçivəsində hasil edilir. Müqavilədə Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) payı 25 faizdir.

## Bu il Şəmkirdə 40,5 faiz çox günəbaxan yığılmışdır



**Şəmkir rayonunun iqtisadiyyatını əsasən kənd təsərrüfatı təşkil edir. Rayonda həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ənənəvi sahələrdən olan taxılçılıq, kartofçuluq, tərəvəzçilik, üzümçülük və heyvandarlıq sürətlə inkişaf edir. Bundan başqa, hər il rayonun təsərrüfatlarında günəbaxan, yerfıstığı, şəkər çuğunduru və digər məhsullar da əkilir.**

Rayonda artıq xeyli vaxtdır ki, günəbaxanın yığımına başlanılmışdır. Ümumilikdə bu il rayon üzrə 972 hektar sahədə günəbaxan əkilmişdir.

Günəbaxan istehsalı ilə məşğul olan fermerlərin sözlərinə görə, bu il də yüksək məhsuldarlıq əldə edilib. İndiyədək sahələrdən 2 407 ton məhsul yığılmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 40,5 faiz çoxdur.

Cari ildə Şəmkir rayonunda 421,7 hektar şəkər çuğunduru, 125 hektar vələmir, 92 hektar lobya, 88,6 hektar soya, 44 hektar isə yerfıstığı əkilmişdir. Rayonda əkilmiş bitkilərin vaxtında yığılması üçün fermerlərə hər cür dəstək göstərilir. Bu məqsədlə Şəmkir Rayon İcra Hakimiyyətinin əməkdaşları mütəmadi olaraq yerli sahibkarlarla görüşlər keçirir, məhsulun tez və itkisiz toplanmasında onlara lazım olan köməyi göstərirlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Ağsuda 12 yaşayış məntəqəsini birləşdirən yolun tikintisi davam edir

**Ağsu-Kürdəmir-Bəhrəmtəpə avtomobil yolunun 19-cu kilometrindən ayrılan Ərəbmehdibəy-Dədəli-Qasımbəyli-Xəlilli-Mustafalı-Göydəlləkli-Təklə-Dəlilər-Qaraqoyunlu-Kəndoba marşrutu üzrə avtomobil yollarının tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamına uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) tərəfindən 10 min nəfər əhalinin yaşadığı 12 yaşayış məntəqəsini birləşdirən yol infrastrukturu layihəsinin icrası davam edir.**



Agentlikdən AZƏRTAC-a bildirilib ki, uzunluğu 26.4 kilometr olan torpaq əsaslı avtomobil yolu təbii faktorların təsirindən yararsız vəziyyətdə idi. Bu səbəbdən əsaslı şəkildə yenidən qurulmasına və bərpasına ehtiyac yaranan yol 4-cü texniki dərəcəyə uyğun olaraq təkmilləşdirilir. Yolun eni 10 metrə qədər genişləndirilir. "İnşaat norma və qaydaları"nın tələblərinə əsasən, texnoloji ardıcıllığa uyğun şəkildə aparılan işlər çərçivəsində artıq yolun 17 kilometrlik hissəsində asfalt örtüyünün vurulması işləri yekunlaşıb, yolun 9.4 kilometrlik hissəsində isə yol əsasının inşası son mərhələdə olmaqla davam edir.

Eyni zamanda yolboyu suların ötürülməsi məqsədilə mövcud dəmir-beton boruların bərpası, zəruri yerlərdə isə müxtəlif diametrli yeni suötürücü boruların tikintisi işləri də icra olunub.

Layihənin sonuncu mərhələsində hərəkətin normal təşkili üçün yol nişanlarının, siqnal dirəklərinin və kilometr göstəricilərinin, dayanacaqların quraşdırılması, yol-cizgi və yolgöstərici xətlərinin, həmçinin piyada zolaqlarının çəkilməsi işləri aparılacaq.

## Yüksək texnologiyalar yüksək nəticələrə xidmət edir

### Azərbaycan gələcəkdə pambıqçılığın inkişafında daha yaxşı göstəricilər qazanacaq

**Kənd Təsərrüfatı Nazirliyinin, Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) və Azərbaycanın Avstriyadakı səfirliyinin dəstəyi ilə 2021-ci ildən Azərbaycanda pambıq istehsalı üzrə torpaq, su və qida maddələrinin idarə edilməsi ilə bağlı "ağıllı kənd təsərrüfatı" təcrübələrinin tətbiqi layihəsinin icrası pambıqçılıqda məhsuldarlığı hər hektardan 83 sentnerə çatdırmağa imkan vermişdir.**



Buna sınaq təcrübələrində nüvə texnologiyalarından istifadə edilməsi səbəb olmuşdur. Demək olar ki, layihə əsasında pambığın məhsuldarlığı və lif keyfiyyəti artırılmışdır. Pakistanın pambıq sortlarının məhsuldarlıq potensialı bir hektarda 12 tondur. Beləliklə, torpağın hums qatı yüksək olduğu üçün "ağıllı kənd təsərrüfatı"nın tətbiqi sayəsində ölkəmiz yeni uğura imza atmışdır. Pakistandan gətirilmiş "Cotton super" növü ilkin mərhələdə hektarın məhsuldarlığını 83 sentnerə qaldırmağa imkan vermişdir. Özü də bu, yeganə layihə deyil. Azərbaycanda 10-a yaxın rayonda sınaq əkinləri aparılmış və yüksək nəticələr qazanılmışdır.

"Ağıllı kənd təsərrüfatı" təcrübəsində iştirak edən fermerlər artıq iki ildir bu layihə əsasında pambıq becərir və onlardan bəziləri hektarın məhsuldarlığını 90 sentnerə çatdıra biliblər.

Fermerlərin gəldiyi qənaət belədir ki, "Cotton super" toxumu əsasən xəstəliklərə və quraqlığa dözümlü olması və becərmə zamanı gübrələrə azalan ehtiyacı ilə seçilir. Fermerlər bu il hər hektardan 9-10 ton civarında məhsul götürməyi planlaşdırırlar.

Kənd Təsərrüfatı Nazirliyi bu istiqamətdə ciddi addımlar atır, Atom Enerjisi üzrə Beynəlxalq Agentliklə birgə müəyyən tədbirlər həyata keçirir. Pambıq, buğda və çəltik istehsalında "ağıllı kənd təsərrüfatı" üzrə beynəlxalq təcrübələrin tətbiqi müsbət nəticələr verir və onların genişləndirilməsi zərurətə çevrilir. Kənd təsərrüfatı nazirinin müavini Elçin Zeynalov bildirib ki, nazirliklə AEBA arasında mövcud olan sıx əməkdaşlığın konturları kənd təsərrüfatının müxtəlif sahələrini əhatə edir.

Qeyd edək ki, 2018-2019-cu illərdə nüvə texnologiyalarının tətbiqi ilə pambığın məhsuldarlığının artırılması istiqamətində birinci layihə üzrə xəstəliklərə, quraqlığa və şoranlığa davamlı mutant pambıq xətləri yaradılıb və həmin xətlər artıq yeni pambıq sortlarının yaradılması üzrə seleksiya proqramlarına daxil edilib. İkinci layihənin məqsədi qlobal istiləşmə şəraitində Azərbaycanda pambıq istehsalının genişləndirilməsi üçün iqlim əsaslı "ağıllı kənd təsərrüfatı" təcrübələrinin inkişaf etdirilməsi və yayılmasıdır. Ölkədə "Smart Agro: Kənd təsərrüfatında innovasiyaların təbliği", "Ağıllı əkinçilik" və gələcəyin dəqiq kənd təsərrüfatı", "Daha yaxşı dünya üçün dayanıqlı kənd təsərrüfatı" mövzularında araşdırmaların aparılması və müasir dünya təcrübəsinin sınaqdan keçirilməsi daim diqqət mərkəzindədir. Belə ki, iqlim dəyişikliyi və qlobal istiləşmə fonunda torpaq və su resurslarından səmərəli istifadənin təşkili aqrar sektorda innovasiya və texnologiyaların daha geniş istifadəsini zəruri edir. Faktiki olaraq qlobal təhlükələri nəzərə almadan inkişaf mümkün deyildir. Bu gün dünyada mövcud olan müasir uğurlu təcrübələrin geniş öyrənilməsi və tətbiqi, o cümlədən aqrar texnologiya transferi vacibdir. Kənd təsərrüfatı mövzusunda keçirilən sərgilər, elmi-praktiki konfranslar yeni texnologiyalarla tanışlığa və onların praktikada geniş tətbiqinə imkan verir. Bu səbəbdən müxtəlif ölkələrdə, o cümlədən Azərbaycanda keçirilən konfranslara, beynəlxalq kənd təsərrüfatı sərgilərinə maraq ildən-ilə artmaqdadır. Müasir dünya təcrübəsi püxtələşdikcə Azərbaycanın kənd təsərrüfatı sektorunda aqrar innovasiyaların tətbiqi də getdikcə genişlənir.

Məlum olduğu kimi, "ağıllı kənd" layihəsinin başlıca məqsədi kənd sakinlərinin daha firavan yaşamasına, onların daha böyük yeniliklərə və yüksək məhsuldarlığa nail olmasıdır. Bu, həmçinin kənd əhalisinin şəhərə axınının qarşısını alan, kəndlə şəhər arasındakı fərqləri minimallaşdıran ciddi addımdır. Ona görə də yüksək texnologiyalar demək olar ki, "ağıllı kənd"in onurğa sütununu təşkil edir.

"Ağıllı kənd" konsepsiyasına əsasən, aqrar proseslərin elektronlaşdırılması istehsal imkanlarını gücləndirir. Burada da ən qabaqcıl texnologiyalar və texnotransferlərin tətbiqinə geniş imkan yaranır. Bu sistemin kənd infrastrukturunun digər sahələrinə - alternativ enerji mənbələrinə və müasir nəqliyyat sisteminə inteqrasiyası yüksək texnologiyaların daha geniş yayılmasına xidmət edəcək.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

**ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!**

# İmişlidə şəhid Əli Quliyevin xatirəsi "Sədaqətim şərəfimdir" adlı tədbirlə anılıb







İmişlidə şəhid Quliyev Əli Tədbir oğlunun xatirəsinə həsr olunmuş "Sədaqətim şərəfimdir" adlı ədəbi-bədii tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, İmişli Rayon Mədəniyyət Mərkəzində gerçəkləşən tədbirdən öncə mədəniyyət işçilərinin əl işlərindən ibarət rəsm sərgisi nümayiş olunub.

Mədəniyyət Mərkəzinin zalında davam edən tədbirdə şəhid ailələrinin üzvləri, İmişli Rayon İcra Hakimiyyətinin rəhbərliyi və məsul əməkdaşları, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, qazilər və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Dövlət himni səsləndirilib, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri açan rayon icra hakimiyyətinin başçısı Elçin Rzayev XTQ-nin giziri Əli Quliyevin keçdiyi şərəfli ömür yolundan danışıb. Qeyd edilib ki, torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş qəhrəman şəhidlərimizin əziz xatirəsinə həsr olunmuş tədbirlər, filmlər, əsərlər və onların adlarının əbədiləşdirilməsi istiqamətində atılan addımlar şəhidərimizin ruhuna, onların doğmalarına ölkəmizdə göstərilən ali ehtiramın ifadəsidir.

Sonra şəhid Əli Quliyevə həsr edilmiş videoçarx nümayiş olunub. Tədbirin gedişatında çıxış edən şəhidin valideynləri övladları barədə xatirələrini bölüşüblər.

Bildirilib ki, Əli Quliyev hələ azyaşlı vaxtlarından hərbçi olmaq arzusunda idi. Həqiqi hərbi xidməti dövründə Xüsusi Təyinatlı Qüvvələrin hərbçisi kimi Vətənin keşiyində dayanıb. Onun həm istedadı, həm də fiziki qabiliyyəti bir çox kurslardan keçməsinə imkan verib. 18 il hərbidə olan Əli sərrast snayperçi olub. Hələ Aprel döyüşlərindən ermənilərin qorxulu yuxusuna çevrilməyi bacarıb. 2020-ci ildə erməni təxribatına qarşı başlanan əks-hücumda Əli də öndə gedənlər sırasında idi. Onların ilk uğurlu tapşırığı Murovdağ istiqamətində olub. Daha sonra Füzuli, Cəbrayıl, Xocavənd istiqamətlərində gedən döyüşlərdə şücaəti ilə seçilib. Cəbrayılın azad olunması zamanı bayrağımızı dalğalandıran qəhrəmanımız da Əli Quliyev olub. Oktyabrın 27-də Xocavənd istiqamətində gedən döyüşlər zamanı Əli qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Döyüşlərdə göstərdiyi şücaətə görə "Azərbaycan Bayrağı" ordeni, "Cəsur döyüşçü", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhid valideynləri şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Sonda ədəbi-bədii kompozisiya nümayiş etdirilib, vətənpərvərlik mahnıları səsləndirilib.

# BDU-nun şəhid məzunu Cavid Manafovun məzarı ziyarət olunub



Bakı Dövlət Universitetinin (BDU) Sosial elmlər və psixologiya fakültəsinin müəllim və tələbələri fakültənin şəhid məzunu Cavid Manafovun məzarını ziyarət ediblər. Bu barədə AZƏRTAC-a BDU-dan məlumat verilib.

Sosial elmlər və psixologiya fakültəsinin dekan müavini Nəzakət Kərimova, fakültənin Tələbə Həmkarlar İttifaqının sədri Heydər Aslanov, tələbələr Keşlə Şəhidlər xiyabanında Cavid Manafovun məzarı önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər. Sonra şəhid Cavid Manafovun ailə üzvləri ilə görüş olub, qürur mənbəyimiz şəhidlərimizin xatirəsinin ürəklərdə əbədi yaşayacağı vurğulanıb.

Qeyd edək ki, Cavid Manafov Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı istiqamətində düşmənə qarşı gedən döyüşlərdə iştirak edib. 2020-ci ilin oktyabrın 31-də batareya komandirini və digər döyüş yoldaşlarını xilas edərkən ağır yaralanıb, noyabrın 7-də şəhid olub. Cavid Manafov 2016-2020-ci illərdə BDU-nun Sosial elmlər və psixologiya fakültəsində təhsil alıb.

# Keçmiş məcburi köçkünlərə gəlir gətirən sahələr üzrə peşə təhsilləri tədris olunacaq

Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində qaçqınların və məcburi köçkünlərin peşə təhsilinin artırılması və yeni yaradılmış bizneslərə dəstək məqsədilə "Qayıdacaq məcburi köçkünlərin gəlir gətirən fəaliyyətlərə təşviq və cəlb edilməsi vasitəsilə dayanıqlı icmaların yaradılması üzrə təşəbbüslərin dəstəklənməsi" layihəsi həyata keçirilir.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, bu istiqamətdə artıq Kəlbəcər rayonunun Zallar kəndinə, Laçın rayonunun isə Sus və Zabux kəndlərinə geri qayıdacaq məcburi köçkünlər arasında görüşlər və sorğular həyata keçirilib. Həmçinin bu mərhələdə benefisiarlar düzgün fəaliyyət seçimi üçün ekspert dəstəyi ilə təmin olunublar.

Bildirilib ki, növbəti mərhələdə layihə çərçivəsində Qarabağa və Şərqi Zəngəzura qayıdacaq keçmiş məcburi köçkünlərə gəlir gətirən sahələr üzrə peşə təhsilləri tədris olunacaq. Faydalanan şəxslər yeni yaradılacaq biznes subyektlərinin fəaliyyətini təmin etmək məqsədilə biznes planlarının yazılması və həyata keçirilməsi üçün xüsusi təlim və mentor dəstəyi xidməti də əldə edəcəklər.

Layihə sonunda bu şəxslər onların fəaliyyətinə dəstək məqsədilə ayrılmış xüsusi aktivlərlə təmin olunacaqlar. Layihənin 2023-cü il oktyabr-dekabr tarixlərini əhatə edən 1-ci mərhələsində ümumilikdə 40 fərdi sahibkar və 5 hüquqi şəxs biznes subyektlərinin təsis edilməsi nəzərdə tutulur.

## Qarabağ bölgəsində əldəqayırma partlayıcıların hazırlandığı emalatxana aşkarlanıb

Qarabağ bölgəsində əraziyə baxış zamanı kustar üsullarla əldəqayırma partlayıcı vasitələrin hazırlandığı emalatxana aşkar olunub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, emalatxananın içərisində xeyli sayda dron vasitəsilə daşına bilən əldəqayırma minalar və onların hazırlanmasında daha çox insan tələfatına nail olmaq üçün istifadə edilən metal parçalar, eləcə də müxtəlif təxribatların törədilməsi məqsədilə kustar üsullarla hazırlanan digər partlayıcı qurğuların olduğu müəyyənləşdirilib.

Qeyd edək ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Qarabağ iqtisadi rayonunda keçirdikləri lokal xarakterli antiterror tədbirləri zamanı Ermənistan silahlı qüvvələrinin birləşmələri və qeyri-qanuni erməni silahlı dəstələri məhz belə emalatxanalarda kustar üsullarla hazırlanan müxtəlif partlayıcılardan istifadə ediblər.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışına başlanılır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


**Azercell abunəçilərinin nəzərinə!**

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 31.10.23-cü il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün tədbirlər görürlər. Tərtib edilən qəbul cədvəlinə müvafiq olaraq, kənd təsərrüfatı naziri Məcnun Məmmədov oktyabrın 27-də Samux Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) inzibati binasında Samux, Şəmkir, Göygöl, Ağstafa, Sabirabad və digər rayonlardan, eləcə də Bakı və Gəncə şəhərlərindən olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Daha sonra nazir Samux DAİM-in inzibati binasında yaradılan şəraitlə tanış olub.

Samux DAİM-in binasında Aqrar Xidmətlər Agentliyinin Səyyar Xidmət Qrupu mexanizatorlar üçün səyyar xidmət təşkil edib. Xidmət zamanı traktor və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün mexanizatorların sürücülük vəsiqələri yeniləri ilə əvəz edilib. Səyyar xidmət qrupu öz fəaliyyətini gün ərzində davam etdirəcək. Nazir Məcnun Məmmədov səyyar xidmətin təşkili prosesi ilə maraqlanıb, mexanizatorların müraciətlərini dinləyib, lazımi tövsiyələrini verib.

Qəbuldan sonra nazir Məcnun Məmmədov Samux DAİM-in kollektivi ilə görüşüb.

❖ ❖ ❖

Energetika naziri Pərviz Şahbazov oktyabrın 27-də Füzuli rayonunun Horadiz şəhərində vətəndaşları qəbul edib.

Nazirliyin Mətbuat xidmətindən bildiriblər ki, müvafiq struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların elektrik enerjisi təchizatı, elektrik xətləri və dirəklərinin qəzalı vəziyyəti, borc və cərimələr, qaz təchizatı, yaşayış yerinə günəş panellərinin quraşdırılması, işlə təminat və digər məzmunlu müraciətləri dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün lazımi tapşırıqlar verilib.

Qəbulda Bakı və Göyçay şəhəri, Füzuli, Beyləqan və Sabirabad rayonlarından olan 24 vətəndaş iştirak edib.

❖ ❖ ❖

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Mingəçevir şəhərində həmin şəhərin və Yevlax rayonunun sakinlərini qəbul edib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qəbul zamanı vətəndaşlar aktiv məşğulluq proqramlarına, o cümlədən özünüməşğulluq proqramına cəlbolunma, əlillik və ünvanlı dövlət sosial yardımı, mənzil təminatı, reabilitasiya və s. məsələlərlə bağlı müraciət ediblər. Müraciət edənlər sırasında şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları da olublar. Hər bir müraciət fərdi qaydada araşdırılıb və nəticəsinə uyğun tədbirlər görülüb.

Sorğu xarakterli müraciətlərlə bağlı qanunvericiliyə uyğun izahatlar verilib. Vətəndaşlar müraciətləri əsasında aktiv məşğulluq proqramlarına, habelə özünüməşğulluq proqramına, reabilitasiya xidmətlərinə cəlb edilmələri üçün qeydiyyata alınıblar.

❖ ❖ ❖

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi Mürsəl İbrahimov oktyabrın 27-də Qazax şəhərindəki Heydər Əliyev Mərkəzində Qazax, Ağstafa, Tovuz və Gədəbəy rayonlarından olan vətəndaşlarla görüşüb.

Görüşdə 20 vətəndaşın müraciəti dinlənilib. Vətəndaşlar SHXÇDX-də həqiqi hərbi xidmətə və ya işə qəbul, vaxtından əvvəl tibbi şəhadətnamə verilməsi, Vətən müharibəsində iştiraka görə təltifolunma, müharibə veteranı adı və vəsiqəsinin verilməsi və sair məsələlərlə bağlı müraciət ediblər.

SHXÇDX rəisi Mürsəl İbrahimov qəbul zamanı hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir hissəsi yerində həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. SHXÇDX-nin səlahiyyətlərinə aid olmayan müraciətlər aidiyyəti qurumlara çatdırılması üçün qeydiyyata alınıb.

*AZƏRTAC*

## ALLAH RƏHMƏT ELƏSİN!

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, QMİ Qazılar Şurasının üzvləri və idarənin kollektivi Qazılar Şurasının üzvü Valeh Nəsirova qardaşı

**MURADIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin I Mamalıq və Ginekologiya kafedrasının kollektivi kafedranın dosenti Fəridə Abbasovaya qayınanası, II Mamalıq və ginekologiya kafedrasının dosenti

**ŞÖLƏ İSMAYILOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Energetika Nazirliyinin rəhbərliyi və kollektivi energetika nazirinin müavini Kamal Abbasova anası

**ŞÖLƏ İSMAYILOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Maliyyə Departamentinin Təsərrüfat şöbəsinin müdiri Fəxrəddin Orucova anası

**ŞƏFİQƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Voleybol Federasiyasının prezidenti Şahin Bağırov tanınmış idman diktoru

**RAMİZ QAFAROVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5317**
**Sifariş 2771**

**Qiyməti 40 qəpik**